QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 100 (5820) **4 iyun** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan-Rusiya ikitərəfli münasibətləri uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinə telefonla zəng edib*



Səh 2

5

**Mübariz Qurbanlı: Tolerantlıq Azərbaycan xalqının ruhundadı**



7

**Mixail Qusman: Bakı dünyanın ən dinamik inkişaf edən şəhərlərinin ilk beşliyinə daxildir**



8

**Bakı, sizdən üzr istəyirik!**



# Dünya Bankı: "Son illərdə Azərbaycan sürətlə inkişaf edir"

*Prezident İlham Əliyev Dünya Bankının nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon Azərbaycanda fəaliyyət müddətinin başa çatdığını qeyd edərək, ötən dövr ərzində ölkəmizlə təmsil etdiyi qurumun səmərəli əməkdaşlıq həyata keçirdiyini vurğuladı. Bu müddətdə ölkəmizin Dünya Bankı ilə əlaqələrinin çox uğurlu olduğunu deyən Mersi Tembon "Doing Business" hesabatında Azərbaycanın əhəmiyyətli dərəcədə irəli getməsini önəmli hadisə kimi dəyərləndirdi. Son illərdə Azərbaycanın sürətlə inkişaf etdiyini bildirən qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıqda böyük uğurlara nail olunduğunu xüsusi vurğuladı. Ölkəmizlə əməkdaşlığın perspektivlərinə toxunan Mersi Tembon qarşıdakı illər üçün növbəti sosial-iqtisadi inkişaf proqramının hazırlanmasında Dünya Bankının Azərbaycana məsləhətçi kimi dəstək verməyə hazır olduğunu dedi. Qonaq qeyd etdi ki, artıq Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı, özünüməşğulluq sahələrində Dünya Bankı ekspertləri ilə ölkəmizin müvafiq strukturları arasında layihələrin hazırlanmasına başlanılıb. O, icbari tibbi sığorta və ədliyyə sahələrində də işlərin getdiyini bildirdi. Sonra Mersi Tembon Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru Sebastian Molenösü təqdim edərək əminliyini bildirdi ki, gələcək illərdə də Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıq uğurla davam etdiriləcək.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın inkişaf etdirilməsində Mersi Tembonun rolunu yüksək qiymətləndirdi. Prezident İlham Əliyev ölkəmizdə Dünya Bankı ilə müxtəlif istiqamətlərdə, o cümlədən özünüməşğulluq, infrastruktur və digər sahələrdə birgə layihələrin həyata keçirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı əlaqələrimizin yeni səviyyəyə yüksəldiyini və qarşıdakı illərdə institusional islahatlar, iş yerlərinin yaradılması, biznes mühitinin daha da yaxşılaşdırılması kimi istiqamətlərdə də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev islahatların nəticəsi olaraq "Doing Business" hesabatında ölkəmizin 25-ci yerə yüksəlməsini və Azərbaycanın 10 ən islahatçı ölkələr siyahısına daxil olmasını önəmli hadisə kimi dəyərləndirdi və qarşıda ölkə iqtisadiyyatının şaxələndirilməsi və daha da inkişaf etdirilməsi kimi mühüm vəzifələrin dayandığını dedi. Prezident İlham Əliyev Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru Sebastian Molenösə fəaliyyətində uğurlar arzuladı.

# "Avropa İttifaqı Azərbaycanla tərəfdaşlığa böyük önəm verir"

*Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinə dair fikir mübadiləsi aparıldı.

Söhbət zamanı, həmçinin Azərbaycan və Avropa İttifaqı arasında nəqliyyat, enerji, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin inkişaf perspektivləri müzakirə edildi.





## "Azərbaycan-Rusiya ikitərəfli münasibətləri uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinə telefonla zəng edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Prezident İlham Əliyev Rusiya Federasiyasının Surqut şəhərinin hava limanına görkəmli neftçi Fərman Salmanovun adının verilməsi ilə bağlı təşəkkürünü bildirdi və bu qərarın Azərbaycan ictimaiyyəti tərəfindən böyük minnətdarlıqla qəbul edildiyini vurğuladı.

Telefon söhbəti zamanı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əldə edilmiş nailiyyətlərdən məmnunluq ifadə olundu. Azərbaycan və Rusiya prezidentləri əlaqələrimizin inkişafına dair müxtəlif məsələlər və əməkdaşlığımızın perspektivləri, eləcə də gələcək təmaslar haqqında fikir mübadiləsi apardılar.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Astara rayonu ərazisində baş vermiş torpaq sürüşməsi nəticəsində əhaliyə dəymiş ziyanın aradan qaldırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti və sahibkarlarla iş sahəsində fərqlənən şəxslərə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 20 noyabr tarixli 354 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Dövlətin prioritet vəzifəsi - iqtisadiyyatın şaxələndirilməsi siyasəti

*İlham Əliyev: “Bu gün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atırıq”*

***Ölkə iqtisadiyyatının inkişafı onun struktur elementlərinin fəaliyyətindən, onların əldə etdiyi nəticələrdən asılı olur. Ölkə rəhbərliyinin, şəxsən dövlət başçısı İlham Əliyevin iqtisadiyyatın inkişaf etdirilməsinin perspektivlərinə dair siyasi iradəsi birmənalıdır: dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunmuş, şaxələndirilmiş, sosial-rifaha köklənmiş iqtisadiyyat formalaşdırılması. Bu siyasi iradə bir sıra dövlət sənədlərində, Strateji Yol Xəritələrində öz real təsdiqini tapmışdır. Tam qətiyyətlə demək olar ki, optimal modernləşmiş iqtisadiyyatın qurulması üçün, ölkəmizdə son 16 il ərzində, möhkəm təməl və fundamental prinsiplərə köklənmiş bazis elementləri də yaradılmışdır. Klassik alman fəlsəfəsində deyildiyi kimi, “hər bir hadisədə keçmişin qalığı, bu günün əsası, gələcəyin rüşeymi vardır” aforizmindən çıxış etmiş olsaq, müasir Azərbaycan iqtisadiyyatı son 16 ildə həyata keçirilmiş tədbirlərin, fədakar zəhmətin nəticəsi kimi qiymətləndirilməli və 2025-ci ilədək modernləşmiş iqtisadiyyatın fundamental əsası kimi qeyd olunmalıdır.***




Bu faktı, xüsusi olaraq qeyd etmək lazımdır ki, son illər Azərbaycanda neft gəlirlərindən səmərəli istifadə edilməsi iqtisadiyyatın şaxələndirilməsinə və qeyri-neft sektorunun inkişafına səbəb olmuşdur. Bu səbədən də, Azərbaycanın qeyri-neft sektorunda yüksək artım baş vermişdir ki, bu da, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir.

Mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq “Xəzər Neft və Qaz-2019” sərgi və konfransının, həmçinin, IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak edən Prezident İlham Əliyev çıxış edərək bu məsələləri ön plana çəkmişdir: “Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması və kadr hazırlığı üçün yeni imkanlar yaradılmışdır. Bu gün Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərdə və neft-qaz əməliyyatlarında iştirak edənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Gözəl təlim və təhsil almış gənc Azərbaycan mütəxəssisləri bu gün ölkəmiz üçün çox böyük işlər görürlər. Kadr hazırlığı, biznes mühitinin yaxşılaşdırılması, beynəlxalq əməkdaşlıq - bütün bunlar bu layihələrin nəticəsində mümkün olmuşdur və ölkəmizə böyük fayda vermişdir”.




## Uğurlu neft siyasət-çox sahəli şaxələndirilmiş islahatlar

Dövlət başçısı, onu da vurğlayıb ki, uğurlu neft siyasətinin qeyri-neft sektorunun inkişafı nəticəsində Azərbaycanda iqtisadiyyatın istiqamətində çox önəmli addımlar atılır: “Dövlət Neft Fondunun yaradılması və Dövlət Neft Fondunun xətti ilə ən vacib məsələlərin həlli - bu da uğurlu neft siyasətimizin nəticəsində olmuşdur. Yüzdən çox köçkün şəhərciyi Dövlət Neft Fondunun xətti ilə inşa edilmişdir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastruktur layihələrinə investisiya qoyuluşu da, məhz bu layihələrlə bağlıdır. Biz son illər ərzində, əsas infrastruktur layihələrimizi icra etdik və bu istiqamətdə işlər davam etdirilir. Həm yol tikintisi, həm qazlaşdırma, həm də elektrik enerjisi ilə bağlı olan məsələlər Azərbaycanda uğurla icra edilir. Qazlaşdırma 95 faizə çatıb. Əgər kifayət qədər qaz resurslarımız olmasaydı, bu, mümkün olmazdı. Yəni bu layihələrin icrası və ümumiyyətlə, Azərbaycanın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının icrası tamamilə yeni bir vəziyyət yaratmış və ölkəmiz sürətlə inkişaf etməyə başlamışdır. Biz neftdən əldə edilən gəlirləri qeyri-neft sektorunun inkişafına və insan kapitalına qoymağa başlamışıq. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağının tikilməsi, yenilənən infrastruktur, sosial layihələrin və vətəndaşların sosial problemlərinin həlli - bütün bunların təməlində bizim uğurlu neft siyasətimiz dayanır. Bu gün isə, ölkə qarşısında duran əsas vəzifə neft-qaz amilindən asılılığı azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bu istiqamətdə də önəmli addımlar atılır. Dünya Bankının son hesabatında biznes mühitinə görə Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni bu, onu göstərir ki, biz bu gün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atırıq. Eyni zamanda, bilməliyik ki, neft-qaz sektoru bundan sonra da ölkə iqtisadiyyatında çox önəmli rol oynayacaqdır”.




## Prezident İlham Əliyevin son addımları bu faktoru təsdiqləyir

Göründüyü kimi, bu gün göstərilən uğurlu iqtisadi göstəricilər, bir daha sübut edir ki, iqtisadiyyatımız yüksəliş yolundadır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyası ardıcıllıqla davam etdirilir. Müəyyən olunmuş inkişaf istiqamətləri üzrə iqtisadiyyatın şaxələndirilməsi isə, müasir dövrün tələbidir. Xüsusilə də, Prezident İlham Əliyevin son islahatları və qərarları tərəqqiyə, şəhid ailələrinin rifahının yüksəlməsinə xidmət edir. Son günlər ölkənin siyasi, sosial-iqtisadi və ictimai həyatında baş verən mühüm hadisələr, bunu deməyə tam əsas verir. Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, həyata keçirilən struktur islahatları, dövlət başçısının Davos Dünya İqtisadi Forumunda iştirakı və burada keçirdiyi mühüm görüşlər, eyni zamanda, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, veteranları ilə görüş və bu kateqoriyadan olan insanların ailə üzvlərinə kompensasiyaların verilməsi ilə bağlı Fərmanın imzalanması, regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramının qəbulu ən diqqətçəkən məqamlardır. Bütün bunlar Prezident İlham Əliyevin yeni inkişaf strategiyasının uğurla davam etdiyini, ölkədə davamlı və tarazlaşdırılmış iqtisadi inkişafın təmin olunduğunu bir daha təsdiqləyir.

Eyni zamanda, bu faktoru dönə-dönə vurğulamaq lazımdır ki, Cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan kompleks islahatlar Azərbaycana, ilk növbədə, “dünyada ən islahatçı” ölkə imicini qazandırıb. Azərbaycan müstəqilliyi dövründə dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi üçün daim islahatlar keçirib və günün tələblərinə cavab verən bir sistem yaratmağa çalışıb. Struktur islahatları ilə bağlı atılan addımlar, bir daha göstərir ki, Azərbaycanda çevik idarəetmə sisteminə böyük maraq var və bu siyasət bundan sonra da davam etdiriləcək.

**RƏFİQƏ KAMALQIZI**

# Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində uşaqlar üçün bayram tədbiri təşkil olunub

***Iyunun 3-də Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində “Gözəl bir gün” adlı bayram tədbiri keçirilib. Tədbir Yaradıcılıq Mərkəzi tərəfindən “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) iştirakı ilə təşkil edilib.***



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib. Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova tədbir haqqında məlumat verib. O bildirib ki, bayram tədbiri Xalq yazıçısı, görkəmli kinodramaturq və rejissor Maqsud İbrahimbəyovun eyni adlı hekayəsi ilə adlandırılıb. Uşaqlar bizim gələcəyimizdir. Onların bayramı hər kəsin bayramıdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova tədbirdə çıxış edərək deyib ki, uşaq siyasəti Azərbaycanın dövlət siyasətinin ən vacib istiqamətlərindən biridir. Ölkəmizdə uşaqların müxtəlif sahələrdə problemlərinin həlli ilə bağlı mühüm sənədlər qəbul olunub. Bu gün Azərbaycanda uşaqların inkişafı üçün bütün imkanlar yaradılıb. Böyüməkdə olan nəslin sağlam, firavan, xoşbəxt yaşaması Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın daim diqqətindədir. Yaradıcılıq mərkəzinə AQUPDK tərəfindən diplom təqdim olunub.



“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin aparat rəhbəri Riad Qasımov bildirib ki, uşaqların gələcəyi dövlətin əsas prioritetindən biridir. Ölkə rəhbərliyi bu məsələyə həssaslıqla yanaşır. Dövlət siyasətinin əsas istiqamətlərindən biri uşaqların təhsilinin, sağlamlığının, asudə vaxtının səmərəli keçirilməsinin təmin edilməsidir. YARADAN Yaradıcılıq Birliyinin rəhbərləri Nigar Rzayeva və Vüsalə Rzayeva uşaqları bayram münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıblar. Onlar ölkəmizdə uşaqların təlim-tərbiyəsi və sağlam böyümələri istiqamətində görülən işlərdən danışıblar.

Tədbirdə “İstedArt” və “Yaradan uşaqlar” layihələrindən qırxdan çox uşaq iştirak edib. Sonra uşaqlar istedadlı gənc rəssamlar, musiqiçilər, fotoqraflar və xoreoqrafların təşkil etdikləri ustad dərslərində, əyləncəli oyunlarda, musiqili yarışmalarda iştirak ediblər.

Uşaqlara Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hədiyyələr paylanılıb.

Qeyd edək ki, “Yaradan uşaqlar” YARADAN Yaradıcılıq Birliyinin 12 yaşdan 16 yaşa qədər, əlilliyi olan uşaqlar da daxil olmaqla, aztəminatlı ailələr, internatlar və sığınacaqlardakı uşaqların bacarıqlarının aşkar edilməsi, inkişafı və həyata keçirilməsi üçün şəraitin yaradılmasına yönəlmiş layihədir. “İstedArt” isə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən inkişaf xüsusiyyətləri olan uşaqların və valideynləri olmayan uşaqların bacarıqlarının, yaradıcı tərəflərinin kəşf edilməsi məqsədilə həyata keçirilən layihədir.

# “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyətin açılışı olub

***IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.***

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva bununla bağlı keçirilən tədbirdə iştirak edib. Tədbir zamanı uşaqlar üçün müxtəlif əyləncə proqramları təqdim olunub. Həyətdə uşaqlar üçün yeni salınmış oyun meydançası, maraqlı attraksion, sürüşkən və yelləncəklər onların böyük sevincinə səbəb olub. Cizgi film qəhrəmanlarının (maskotlar) və animatorların da qoşulduqları tədbir zamanı uşaqlar sevimli personajları ilə görüşüb, onlarla birlikdə əyləniblər.







Uşaqlar bayramlarını bol əyləncələrlə qeyd etməklə yanaşı, istedad və bacarıqlarını da nümayiş etdirərək mahnı və rəqslər təqdim ediblər. Qeyd edək ki, yenilənmiş həyət Xətai rayonu, İlqar Zülfüqarov küçəsi, 107, 109, 111, 113 ünvanlarında 2 min nəfərə yaxın sakinin yaşadığı doqquzmərtəbəli dörd binanı əhatə edir.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə ərazidə 1 mini futbol meydançası, 1 şahmat meydançası, idman qurğuları, 4 söhbətgah və oturacaqlar quraşdırılıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarının möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi dördüncü həyətdir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.






# Pakistanın Prezidenti və birinci xanımı Heydər Əliyev Fondundun dəstəyi ilə İslamabadda uşaqlar üçün keçirilən tədbirdə iştirak ediblər

***Pakistan Prezidentinin Sarayında Heydər Əliyev Fondundun dəstəyi ilə Beynəlxalq Uşaqlar Günü və müqəddəs Ramazan ayı ilə əlaqədar tədbir keçirilib.***



Səfirlikdən bildiriblər ki, tədbirdə Pakistan Prezidenti Arif Alvi və birinci xanım Samina Alvi, dövlət rəsmiləri, deputatlar, tanınmış ictimai-siyasi xadimlər, bir sıra xarici ölkələrin Pakistandakı səfirləri və diplomatlar iştirak ediblər.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın adından tədbir iştirakçılarını salamlayaraq Beynəlxalq Uşaqlar Günü və müqəddəs Ramazan ayı münasibətilə təbrik edən Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə uşaqların hüquq və azadlıqlarının qorunmasının, onların rifah halının yaxşılaşdırılmasının, eləcə də bu sahədə dövlət siyasətinin koordinasiya edilməsinin Azərbaycan hökumətinin əsas vəzifələrindən biri olduğunu deyib. Səfir bununla yanaşı, qeyri-hökumət təşkilatlarının da Azərbaycanda uşaqların hüquqlarının müdafiəsində fəal iştirak etdiyini diqqətə çatdırıb.




Diplomat Heydər Əliyev Fondunun Azərbaycanda və ölkəmizdən kənarda uşaqların müdafiəsi istiqamətində həyata keçirdiyi layihələr barədə danışıb. O, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Fondun Pakistanın bir çox əyalətində səhiyyə, təhsil, sosial və humanitar sahələrdə müxtəlif layihələr həyata keçirdiyini və bu layihələrin bu gün də davam etdirildiyini bildirib.

Səfir uşaqların hüquq və maraqlarının qorunmasının zəruriliyini qeyd edərək bir çox sosial göstəricilərin Pakistanın da son illər ərzində uşaq hüquqlarının qorunmasında qazandığı uğuru əks etdirdiyini, Pakistan Prezidentinin tədbirə təşrif buyurmasının uşaqların müdafiəsi ilə bağlı dövlətin səylərinin və qərarlılığının bariz nümunəsi olduğunu vurğulayıb.

Azərbaycan ilə Pakistan arasında ortaq mənəvi dəyərlərdən irəli gələn və yüksələn xətlə inkişaf edən dostluq və qardaşlıq münasibətlərinin olduğunu ifadə edə Əli Əlizadə Heydər Əliyev Fondu tərəfindən Beynəlxalq Uşaqlar Gününün və müqəddəs Ramazan ayının xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birgə Prezidentin Sarayında qeyd edilməsinə verilən razılığı, habelə Pakistan Prezidenti və birinci xanımının tədbirdə iştirakını iki ölkə arasında dostluq və qardaşlığın, eyni zamanda, uşaqların müdafiəsinə diqqətin təzahürü kimi qiymətləndirib, Pakistan Prezidenti və birinci xanımına, həmçinin Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya daimi dəstəyə görə təşəkkür edib.

Tədbirin xüsusi ali qonağı, Pakistan Prezidenti Arif Alvi 2005-ci ildən başlayaraq Pakistanda baş verən zəlzələdən sonra Heydər Əliyev Fondunun Pakistanda həyata keçirdiyi sosial və humanitar layihələrə görə Fondun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya təşəkkürlərini ifadə edib. Prezident Azərbaycan və Pakistanın tarixdən gələn birgə mədəni və mənəvi dəyərlərə əsaslanan çox yaxın dostluq münasibətlərinə malik olduğunu vurğulayıb. Prezident, həmçinin Fondun Pakistanın müvafiq xeyriyyə təşkilatlarına, məktəblərinə, mərkəzlərinə göstərdiyi yardımın səmimi xeyirxahlıq duyğularının təzahürü olduğunu qeyd edib. O, eyni zamanda, xüsusi qayğıya ehtiyacı olan uşaqlara yardımın, onları sevindirməyin yalnız dövlətin deyil, eləcə də cəmiyyətin imkanlı insanlarının vəzifəsi olduğunu bildirib, humanitar sahədə insanların fəallığının önəmini diqqətə çatdırıb.

Mərasimdə Xüsusi Təhsil üzrə Baş Direktorluğun müxtəlif məktəblərini, Talassemiya Mərkəzini və Xüsusi uşaqlar üzrə Hərbi Akademiyanı və hərbi məktəbləri təmsil edən xüsusi qayğıya ehtiyacı olan 400-dən çox uşaq iştirak edib. Tədbirdə uşaqların müxtəlif əlillik kateqoriyalarına mənsub bir qismi öz məharətlərini sərgiləyib, müxtəlif səhnəciklər və mahnılar təqdim edib, əlilliyin bacarıqsızlıq olmadığını nümayiş etdiriblər.

Tədbirin rəsmi hissəsindən sonra xüsusi uşaqlar və məktəblərin kollektivləri üçün Pakistanın Prezidenti və birinci xanımının iştirakı ilə iftar süfrəsi açılıb və uşaqlara Heydər Əliyev Fondunun hədiyyələri təqdim olunub.

## Mübariz Qurbanlı:
## Tolerantlıq Azərbaycan xalqının ruhundadı

***İyunun 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Argentina Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella ilə görüşüb.***



Səfirə yeni diplomatik missiyasında uğurlar arzulayan Mübariz Qurbanlı qonağa Azərbaycandakı nümunəvi dövlət-din münasibətləri, Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, dinlərarası harmoniya, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında, eləcə də bu münasibətlərin tənzimlənməsi sahəsində fəaliyyət göstərən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi barədə məlumat verib.

Dövlət Komitəsinin sədri əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycanın dövlət-din modelini bu gün Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində multikulturalizmin respublikamızda dövlət siyasətinə və həyat tərzinə, tolerantlığın isə xalqımız üçün yüksək mədəni dəyərə çevrildiyini bildirib.

Komitə sədri tolerantlığın Azərbaycan xalqının ruhunda olduğunu deyərək bu dəyərin ölkəmizin siyasi və ictimai həyatında da özünü göstərdiyini söyləyib. Roma Papaları II İohann Pavel və Fransiskin ölkəmizə tarixi səfərlərini xatırladan Mübariz Qurbanlı qeyd edib ki, ölkəmizdə yəhudi sinaqoqları, pravoslav, katolik və lüteran kilsələri fəaliyyət göstərir. Azərbaycanda 33 qeyri-müsəlman dini icmanın qeydiyyata alındığını vurğulayan DQİDK sədri dini mənsubiyyətindən asılı olmayaraq bütün dini icmalara dövlət tərəfindən diqqət və qayğı göstərildiyini, İslam və qeyri-islam dini ibadətgahların təmir və inşa edildiyini səfirin nəzərinə çatdırıb.

Söhbət zamanı qarşı tərəfə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni və dini irsin talan və məhv edilməsi siyasəti haqqında da ətraflı məlumat verilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Serxio Osvaldo Perez Qunella respublikamızın sürətli inkişaf yolunda olduğunu bildirib. Ölkələrarası oxşarlıqdan bəhs edən səfir Azərbaycanda qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, gündəlik həyatında ölkəmizdəki tolerant və multikultural mühitin şahidi olduğunu diqqətə çatdırıb. Azərbaycanın multikulturalizm ənənələrinin qorunmasına yönəlmiş çoxşaxəli siyasətinin təqdirəlayiq hal olduğunu vurğulayıb.

Qarşılıqlı maraq doğuran digər məsələlərin də müzakirə edildiyi görüşün sonunda qonağa DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

## “Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsi ölkəyə turist axınını sürətləndirir”

Şəki diyarı keramika məhsullarının hazırlanması üzrə tarixi ənənələrə malikdir. Bu ənənələrin qorunub saxlanması, mədəni irsimizin gələcək nəsillərə ötürülməsi çox vacibdir. Bu sözləri Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Şəki I Beynəlxalq Keramika Simpoziumunun bağlanış mərasimində jurnalistlərə müsahibəsində deyib.

Agentliyin sədri belə tədbirlərin turizmin inkişafı baxımından da mühüm əhəmiyyət daşıdığını xüsusi vurğulayıb. “Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsi ölkəyə turist axınını daha da sürətləndirir”, - deyə Fuad Nağıyev qeyd edib.

# İkinci məktub: Tramp Azərbaycan həqiqətlərini açır

***Amerikanın dövlət başçısı Donald Tramp Azərbaycan Prezidentinə qısa müddətdə iki məktub ünvanlayıb. Müasir qlobal geosiyasi proseslərin sürətli dəyişməsi və xeyli ziddiyyətli məqamların meydana gəlməsi fonunda bu, çox maraqlı təsir bağışlayır. ABŞ-ın Prezidenti hər iki məktubunda qısa formada olduqca vacib geosiyasi, iqtisadi və enerji məsələlərinə toxunub. O, konkret ifadə edib ki, Azərbaycan regionun ən uğurlu dövlətidir və liderdir. İndi liderliyi daha da genişləndirmək zamanıdır. Yeni rəsmi Bakı həyata keçirdiyi uğurlu siyasəti daha da inkişaf etdirib, böyük bir geosiyasi məkanda lider rolunu oynaya bilər. Sanki D.Tramp bütün dünyaya Azərbaycan həqiqətlərini fenomen olaraq açır. Bu fikirlərin fonunda ikinci məktubun tezisləri üzərində geniş dayanmağa ciddi ehtiyac vardır.***




## Böyük maraq: Trampın Cənubi Qafqazın liderinə mesajları

ABŞ Prezidentinin qısa bir müddətdə Azərbaycan Prezidenti İlham Əliyevə iki məktub ünvanlaması siyasət aləmində maraqla qarşılanıb. Ekspertlər Donald Trampın adətən "Tvitter diplomatiyası" apardığını vurğulayırlar. Ancaq o, ciddi hesab etdiyi və əhəmiyyət verdiyi məsələlərdə kifayət qədər peşəkar hərəkət etdiyini də nümayiş etdirir. Prezident İlham Əliyevə yazdığı iki məktubda lakonik və səmərəli təklifləri ilə daha çox maraq doğurub. Əhəmiyyətlidir ki, bu məktubların məzmunu bir-birini tamamlayır. Onlar arasında zərrə qədər də ziddiyyət yoxdur.

Məsələ ondan ibarətdir ki, Respublika Günü münasibəti ilə yazılan məktubda ifadə edilən fikirlər Beynəlxalq "Xəzər Neft və Qaz" sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar keçirilən tədbirlə bağlı ünvanlanan məktubda daha da konkretləşdirilir və eyni zamanda, Azərbaycanın geosiyasi rolu üzərində dayanılır. Azərbaycanın əldə etdiyi nəticələrin D.Tramp tərəfindən qiymətləndirilməsi sözün həqiqi mənasında digər böyük dövlətlərin başçıları üçün də bir nümunə ola bilər.

İkinci məktubu məntiqi, məzmunu və məqsədinə görə şərti olaraq üç hissəyə ayırmaq mümkündür. D.Tramp öncə Azərbaycanın əldə etdiyi nailiyyətlərə geosiyasi qiymət verir. ABŞ Prezidenti yazır: "Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. Cənub Qaz Dəhlizi daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir".

Buradan görünür ki, Amerika Azərbaycanı firavan ölkə kimi qəbul edir. Bu, birbaşa ölkə rəhbərliyinin həyata keçirdiyi inkişaf kursunun çox uğurlu olduğuna dəlalət edir. Azərbaycanın firavanlığı əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə bərabər daxili sabitliyin təmin edilməsi ilə də sıx bağlıdır. Daxildə sabitlik olmadan hər hansı inkişafdan söhbət gedə bilməz. D.Tramp məsələnin bu tərəfini qabartmaqla ölkə rəhbərliyinin müasir tələblərə cavab verən və ziddiyyət yaratmayan siyasət reallaşdırdığını etiraf edir.

Bu kontekstdə Azərbaycanın qlobal iqtisadiyyata bağlı olması xüsusi əhəmiyyət kəsb edir. Cənubi Qafqazda indi müşahidə edilən geosiyasi proseslərin fonunda bu, son dərəcə vacib məqamdır. Belə ki, Cənubi Qafqazın digər dövlətləri xarici siyasətin birtərəfliliyi ucbatından ziddiyyətli situasiyalara düşürlər. Ermənistan isə qəfəsə düşmüş siçovul kimi qapalı dairədə fırlanır. Nikol Paşinyana olan ümidlər də boş vədlərin fonunda sabun köpüyü kimi dağıldı. İndiyə qədər Ermənistan rəhbərliyi konkret nəticəsi olan layihə təklif edə bilməyib. Kimsə də onunla iş görməyə həvəsli deyil. Azərbaycan isə tamamilə başqa səviyyədədir.

Amerikanın dövlət başçısı bəyan edir ki, Azərbaycan firavandır və eyni zamanda, qlobal iqtisadiyyata bağlıdır! Qlobal iqtisadiyyata bağlılıq mühüm faktordur. Belə ki, müstəqilliyini əldə etmiş dövlətlərin dünyanın daha inkişaf etmiş hissəsinə inteqrasiyası olduqca yaradıcı işlər görməyi tələb edir. Burada iqtisadi infrastrukturun yeniləşdirilməsindən tutmuş idarəetmənin və dövlətlərarası münasibətlərin elə səviyyəsinə çatmaq lazım gəlir ki, sistemə uyğunlaşa biləsən. Azərbaycan qlobal iqtisadiyyata həyata keçirdiyi çox sayda təşəbbüsləri, sanballı və ünvanlı islahatları, yüksək səviyyəli diplomatik fəaliyyəti sayəsində inteqrasiya ola bilib. Bunun üçün Ulu Öndər və sonra Prezident İlham Əliyev çox böyük əmək sərf ediblər. Nəticə isə bütün xalq, dövlət və vətəndaş üçün faydalı olub. D.Tramp məhz bu uğuru görə bilib.

## Təklif: yeni liderliyə birgə gedək!

Daha maraqlısı odur ki, Amerika Prezidenti Azərbaycanın bu uğurlarının beynəlxalq miqyasda verəcəyi töhfələrin geosiyasi və iqtisadi aspektlərini də çox perspektivli sayır. O, məktubunda vurğulayır: "Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır". D.Tramp həyata keçirilən siyasətin Azərbaycanı Cənubi Qafqazın lideri halına gətirdiyini aksiom olaraq qəbul edir. Üstəlik, bu liderliyin potensialının ancaq regionla məhdudlaşmadığını ifadə edir. Əksinə, bu vəziyyət Azərbaycana elə bir şans verir ki, o, daha geniş geosiyasi məkanda lider ola bilmək imkanı əldə edib. Burada "imkan" anlayışını da geniş anlamaq gərəkdir. O, Azərbaycanın təkcə daxili deyil, həm də xarici siyasətinin yüksək potensialının olduğunu göstərir. Bu potensial iki aspektdə özünü büruzə verir.

Birincisi, Azərbaycan öz xarici siyasətini əməkdaşlıq müstəvisində tam bərqərar edib. Bizə dost olmaq istəməyən dairələrin iddialarının əksinə olaraq, xarici siyasətin bu aspekti ölkəmizin liderlik statusuna yüksəlməsinə belə təkan verir. Deməli, xarici siyasət həm səmərəli, həm müasir, həm də kreativ xarakterə malikdir.

İkincisi, xarici siyasət məhdud məqsədlərə istiqamətlənməyib, bütün dünyanı əhatə edə biləcək məqsədlərin izindədir. Bu tam uğurlu və səmərəli proses indi o səviyyədədir ki, Xəzərin o tayı ilə yanaşı, ətraf dənizlərin sahillərində yerləşən ölkələrin də yolu Azərbaycandan keçə bilər. Burada təbii ki, əsas məsələ coğrafi mövqedə deyil. İlk sırada Bakının yeritdiyi siyasətin incəliklərinin qlobal tələblərə uyğunluğundadır. Bununla D.Tramp erməni lobbisinin və onların havadarlarının əlində alətə çevrilən dairələrin Azərbaycana qarşı məkrli planlarını və qərəzli kampaniyalarını alt-üst edir. Azərbaycan regional lider kimi bir neçə regionun lideri olmaq şansı əldə edib. Ermənistan bu prizmadan necə də zavallı və miskin görünür!

D.Tramp bunlarla məhdudlaşmır. O, Vaşinqtonun bu prosesdə Azərbaycan rəhbərliyinə tam dəstək verdiyini ifadə edir. Amerikanın dövlət başçısı yazır: "Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir". Çox əhəmiyyətli fikirlərdir.

D.Tramp ifadə edir ki, Birləşmiş Ştatlar xarici sərmayələrin Azərbaycana cəlb edilməsi istiqamətində rəsmi Bakının atdığı addımları böyük razılıqla qarşılayır və onları çox önəmli sayır. Azərbaycan rəhbərliyi xarici sərmayələrin təşviqi prosesini də uğurla aparmaqdadır. Həmin səbəbdən ABŞ Azərbaycana daha çox sərmayə yatırmaqla yanaşı, Azərbaycan Prezidentinin reallaşdırdığı islahatlara da dəstəyini artırmaqda qərarlıdır. Həm də ona görə ki, Vaşinqton Azərbaycanın iqtisadi uğurunun bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəyinə əmindir.

Sonuncu məqamı D.Tramp məktubunda bir daha önə çəkir. ABŞ Prezidenti vurğulayır ki, "Mən birgə səylərimizlə Cənubi Qafqazın daha da dinc, demokratik və firavan olması üçün əməkdaşlığımızın davamlı olmasını arzulayıram". Burada isə anti-Azərbaycan mövqeli mərkəzlərin və "beşinci kolon"un çirkin kampaniyalarla Azərbaycana təzyiq göstərmək, onu öz yolundan döndərmək cəhdlərinə sərt bir cavab vardır. Amerika hesab edir ki, Cənubi Qafqazın daha dinc, demokratik və firavan olması yolunda Azərbaycan lider kimi çalışır, ABŞ bu məsələdə ona dəstək verir.

Bunlar ciddi geosiyasi tezislərdir. Azərbaycan regionun sabitliyi, demokratikləşməsi və daha sıx əməkdaşlıq səviyyəsinə yüksəldilməsi prosesində aparıcı rol oynayır. Bakı hazırda bu prosesin lideridir. Onun atdığı hər bir addım region üçün olduqca əhəmiyyətlidir. Çünki Cənubi Qafqazın gələcəyi həmin addımlarla müəyyən edilir.

Təbii ki, buradan regional münaqişələrin həllinə məntiqi keçid vardır. Ermənistan və havadarları nə qədər suyu bulandırsalar da, Azərbaycanın xoş məramı və qətiyyətli iradəsi qalib gələcək. Bütövlükdə region məhz Azərbaycanın təşəbbüsü ilə sabitliyə və inkişafa qovuşacaq!

***Newtimes.az***

# KİVDF ictimai-siyasi qəzetlər və jurnalistlər üçün müsabiqələr elan edib



İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Müşahidə Şurasının növbəti iclası keçirilib.

Fonddan AZƏRTAC-a bildirilib ki, Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açaraq gündəlik barədə məlumat verib. O, gündəliyə 2019-cu ilin II yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanının müzakirəsi və təsdiqinin və Fondun 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsi elanının müzakirəsi və təsdiqinin daxil olduğunu deyib.

Fondun icraçı direktoru Vüqar Səfərli 2019-cu ilin II yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqənin iyunun 4-dən 27-dək "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçiriləcəyini bildirib. O bildirib ki, ictimai-siyasi qəzetlərin 2019-cu ilin II rübündə qüvvədə olmuş qayda əsasında - üç kateqoriya üzrə (gündəlik, günaşırı və həftəlik) maliyyələşdirilməsi təklif edilir.

İcraçı direktor bildirib ki, I kateqoriyaya əsasən, son 3 ildə müntəzəm nəşr olunan, tirajı 3000 nüsxədən, satış və abunəsinin cəmi 2000 nüsxədən, müsabiqə elan edilən günədək səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan gündəlik (həftədə 5 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin maliyyələşdirilməsi, onlara aylıq 20 min manat maliyyə yardımının ayrılması təklif edilir. İkinci kateqoriyaya əsasən, son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən günədək səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan, günaşırı (həftədə 3 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin maliyyələşdirilməsi, onlara aylıq 10 min manat maliyyə vəsaitinin ayrılması məqsədəuyğun sayılır. Üçüncü kateqoriyaya əsasən, son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən günədək səhifələrinin sayı 24-dən (A3, B2 formatda) az olmayan həftəlik ictimai-siyasi qəzetlərin maliyyələşdirilməsi, onlara aylıq 5 min manat maliyyə vəsaitinin ayrılması təklif edilir.

Sonra məsələ ətrafında geniş müzakirələr aparılıb. Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən Bəhruz Quliyev, İntiqam Hümbətov, Ayaz Mirzəyev, Rasim Həsənov və Əvəz Rüstəmov KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı irəli sürülən təklifi qənaətbəxş qiymətləndiriblər. Müsabiqə elanı səsə qoyularaq yekdilliklə qəbul edilib.

Gündəlikdəki ikinci məsələ barədə məlumat verən Vüqar Səfərli bildirib ki, Fondun 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü münasibətilə elan edəcəyi ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin 2019-cu il iyunun 4-dən iyulun 12-dək 19 istiqamət üzrə keçirilməsi təklif olunur. Vüqar Səfərli müsabiqənin şərtlərinə əsasən I yerin qalibi üçün 500, II yerlər üçün 400, III yerlər üçün 300 manat mükafatın nəzərdə tutulduğunu vurğulayıb.

Müşahidə Şurasının üzvləri müzakirələr zamanı Fondun keçirdiyi fərdi jurnalist yazıları müsabiqələrinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyinin stimullaşdırılması və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini qeyd ediblər. Daha sonra müsabiqənin elanı səsə qoyularaq yekdilliklə təsdiq edilib.



# Madrid UEFA oyunlarında Bakıya məğlub oldu!

Bir həftə ərzində UEFA-nın təşkilatçılığı ilə iki böyük qarşılaşma - 29 mayda Bakıda Avropa Liqasının finalı və iyunun 1-də Madriddə Çempionlar Liqası finalını keçirdi. Finalda ingilislər idi. Bakıda keçirilən ilk oyunda "Çelsi" "Arsenal"ı 4:1, Madriddə keçirilən ikinci oyunda isə "Liverpul" "Tottenhem"i 2:0 hesabı ilə məğlub etdi. Hər iki oyun maraqlı idi və oyunçular özlərini yetərincə nümayiş etdirdilər. Lakin finalın təşkilati məsələləri bir-birindən çox fərqlənirdi.

Bəzi futbol mütəxəssisləri, məsələn "Liverpul"un almaniyalı baş məşqçisi Klopp Avropa Liqasının finalının Azərbaycanda keçirilməsi seçimini qınadılar. Halbuki Kloppun nə özü, nə də oyunçuları Bakıda bircə dəfə də olsun çıxış etməmişdilər və bu şəhərlə tanış deyildilər. Buna baxmayaraq UEFA-nın Bakı finalının uğursuz seçim olduğunu deyirdilər. Azarkeşlər də Azərbaycanın paytaxtına gəlməklə bağlı heç bir problem yaşamadılar. Yarışın təşkilində heç bir problem olmadığı üçün fanatlar fan zonalara və stadiona asanlıqla gəldilər, hər kəs oyun, stadion və futbol əyləncəsindən məmnun qaldı.

Madriddə isə fərqli durum yaşandı, finala gələn "Liverpul" və "Tottenhem" azarkeşləri dəhşətli tıxaclar səbəbindən stadiona gəlməkdə çətinliklər yaşadılar, bir çoxu isə yubanmaq məcburiyyətində qaldılar.

İngiltərəli futbol mütəxəssis Brian Hurley BBC-yə verdiyi müsahibəsində Madriddə yaşananları "cəhənnəm" adlandırıb: "Çempionlar Liqasının tarixindəki ən pis matç idi. Bakı finalı barədə isə bunu demək olmaz, Azərbaycanın paytaxtına, oyunun keçirildiyi arenaya məsafə çox uzaq olmasına baxmayaraq oyun əla təşkil edilmişdi. Şəhər təmiz, təhlükəsiz və stadion çox rahat idi. Mən "Çelsi" və "Arsenal" arasında keçirilən oyuna baxmaq üçün Bakıya gələn on minlərlə azarkeşin təhlükəsizliyi, təşkilati və infrastruktur səviyyəsindən məmnun oldum".

"Bakı Olimpiya stadionu dünya səviyyəlidir, bütün standartlara cavab verir", - Böyük Britaniyanın Azərbaycandakı səfiri Kerol Crofts bildirib.

"Futbol ab-havası çox gözəl və sevindirici idi. Oyun, final, Bakı çox gözəl idi, bu şəhərə xoş gəldim. Burada hər şey ürəyincədir. Bu, böyük bir səfər idi", deyə "Arsenal"ın Richard Scales adlı pərəstişkarı bildirib.

# "Təcavüzkarlar dinc əhalimizə, hərbçilərimizə açdıqları hər snayper atəşləri ilə öz vəziyyətlərini qəlizləşdirmiş olurlar"

***"İşğalçı Ermənistanın siyasi hakimiyyəti dəyişsə belə, mövcud rəhbərliyin Qarabağ münaqişəsinin həlli istiqamətində konstruktivlik maraqlarının olmadığı göz qarşısındadır".***

Bu fikirləri "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Olaylar.az-a ATƏT MQ həmsədrlərinin regiona səfəri zamanı erməni snayperi tərəfindən Azərbaycan Ordusunun zabiti Aqil Omarovun qətlə yetirilməsini şərh edərkən deyib. Onun sözlərinə görə, erməni təcavüzkarlarının işğalçılıq siyasəti dəyişilməz qalmaqla yanaşı, onların əsas məqsədləri hazırkı status kvonu saxlamaq cəhdləridir: "Biz düz 25 ildir ki, münaqişənin həlli istiqamətində heç bir irəliləyişin olmadığının şahidləriyik və Ermənistan əsasən danışıqlar prosesinə hər vəchlə maneə olmağa çalışırlar. Yəni onlar işğalçılıq siyasətlərini nəinki saxlamaq, hətta zaman-zaman inkişaf etdirmək məqsədlərini belə gizlətmirlər. İşğalçılar müxtəlif beynəlxalq siyasi kuluarlarda səsləndirdikləri dırnaqarası sülhpərvərlik çağırışları ilə deyərdim ki, müvafiq qurumları ələ salırlar. Onların bu "iddiaları" yalnız və yalnız öz işğalçılıq maraqlarının qorunub-saxlanmasına hesablanıb".



Siyasi ekspert hesab edir ki, Ermənistanın Serj Sarkisyan hakimiyyəti Nikol Paşinyan hökuməti ilə əvəzlənsə də, ortada heç bir mənzərə dəyişməyib və bu, son anda həmin ölkə və xalq üçün çox ağır nəticələrə gətirib-çıxara bilər: "Artıq Paşinyan anlamağa məhkumdur ki, son anda hər şey onun və ölkəsinin əleyhinə çevrilə bilər. Çünki qarşılarında öz ərazi bütövlüyünü haqq-ədalətlə bərpa etməyə qadir olan güclü Azərbaycan dövləti dayanıb. Yəni təcavüzkarlar dinc əhalimizə, hərbçilərimizə açdıqları hər snayper atəşləri ilə öz vəziyyətlərini qəlizləşdirmiş olurlar. Onlar birlməlidirlər ki, bu cinayətlər nə hüquqi, nə də digər baxımdan cavabsız qalmayacaq. Azərbaycanın riayət etdiyi beynəlxalq qanunlar və konvensiyalarla yanaşı, onlara ağır zərbə vuracaq adekvat hərbi güc reallığı da nəzərə alınmalıdır. Təəssüf ki, onlar hələ də bu məsələlərə barmaqarası baxırlar, lakin bir gün nə qədər səhvə yol verdiklərini anlasalar, onda da çox gec olacaq".

"Təəssüf ki, hərbçimizin qətlə yetirilməsindən sonra nə həmsədr ölkələr, nə də beynəlxalq qurumlar sözügedən təxribatı qəti şəkildə pisləyən bəyanatlarla çıxış etmədilər, Ermənistanı qınayaraq, ondan bu qanlı əməlinə görə izahat istəmədilər", deyə qeyd edən Bəhruz Quliyev əlavə edib ki, məhz müvafiq qurumlar substantiv danışıqların başladılması üçün addımlar atmalıdırlar: "Bunun üçün isə, işğalçı Ermənistana qarşı ardıcıl təzyiq göstərmək gərəklidir. Bu təzyiqlər təcavüzkarların sülh danışıqları masasına əyləşmələrinə səbəb ola bilər. Lakin hələlik biz bunu müşahidə etmirik və unutmamalıyıq ki, torpaqlarımızın işğaldan azad olunması məsələsində nəticə, söz, uğur və qələbə məhz Azərbaycanın tərəfindədir. Baxmayaraq ki, Azərbaycan münaqişənin sülh yolu ilə həll olunmasının tərəfdarıdır, ancaq Ermənistanın cığallığı və heç nəyə məhəl qoymaması bu ölkənin siyasi məhvini sürətləndirə bilər. Ona görə də, dünya tərəfindən qəbul olunmayan status-kvo məhz Ermənistana qarşı ciddi təzyiq nəticəsində dəyişməli, sülh prosesinə və erməni işğalının nəticələrinin aradan qaldırılmasına yolu açmalıdır. Yəni Ermənistan acı aqibətini indidən nəzərə almalı və bundan qurtulma yollarını axtarmalıdır".

# Mixail Qusman: Bakı dünyanın ən dinamik inkişaf edən şəhərlərinin ilk beşliyinə daxildir



Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Bakını dünyanın ən dinamik inkişaf edən beş şəhərindən biri hesab edir. O, bu barədə "Paxlava production" layihəsinə müsahibəsində bildirib. AZƏRTAC xəbər verir ki, proqramın növbəti qonağı əslən bakılı, Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman olub. Qusman deyib: "Mən dünyanın hər yerində kifayət qədər oluram. Müxtəlif şəhərlər görürəm: həm postsovet məkanında, həm də uzaq xaricdə. Müsbət inkişaf istiqamətində baş verən dəyişikliklər baxımından Bakı ilə müqayisə edilə biləcək şəhərlər azdır".

O daha sonra əlavə edib: "Mən sizə bu barədə daha artığını deyə bilərəm. Mənə elə gəlir ki, Bakı və bütövlükdə Azərbaycan, lakin indiki halda biz Bakı haqqında danışırıq, dinamik inkişaf baxımından ola bilər, inkişafın intensivliyinə, ən müasir, ən parlaq, ən təsir bağışlayan tərzin əldə olunmasına görə dünya şəhərlərinin ilk beşliyindədir".

Xatırladaq ki, "Paxlava production" M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tələbələri tərəfindən yaradılan layihədir. Bu layihə çərçivəsində tələbələr tanınmış azərbaycanlılardan və ya vaxtilə Azərbaycanda yaşamış, hazırda Rusiyada yaşayan insanlardan müsahibə götürürlər. Müsahibənin tam mətni ilə https://youtu.be/r6PshjD8yHY linki vasitəsilə tanış ola bilərsiniz.

# Bakı, sizdən üzr istəyirik!

*Madrid rüsvayçılığı Britaniya və dünya KİV-lərinə bu etirafı etdirdi*

***Madriddə keçirilmiş Çempionlar Liqası finalında qarşılaşan "Liverpul"-"Tottenhem" oyunu azarkeşlərə cansıxıcılıqla yanaşı, nəhəng problemlər də yaşatdı. Bunu dünya mətbuatı yazdı və ən maraqlısı budur ki, həmin məsələdə Bakının Madriddən istər təşkilatçılıq, istər təhlükəsizliyin təminatı, istərsə də digər oyunqabağı və sonrası proseslər baxımından qat-qat üstün, eləcə də, yüksək səviyyəli olduğu vurğulandı. Hətta Bakıdan üzr istəyənlər də oldu!***

"Bu, Çempionlar Liqasının tarixində ən pis final idi. Bakı, sizə güldüyümüz üçün bizi bağışlayın! Geriyə baxarkən, siz Madriddən daha çox səviyyəli oldunuz" deyə jurnalistlər "tvitterdə" yazıblar.



© AP

## İspaniyanın paytaxtı ingilislərin fanat dalğası ilə bacara bilmədi

Əslində, həqiqətən də, futbol üzrə nəhəng hadisələr yaşayan, təşkilatçılıq məsələlərində Bakıdan kifayət qədər təcrübəli olan Madrid finalı çox aşağı səviyyəsi ilə yadda qaldı. Maraqlısı da budur ki, digər xarici KİV-lərlə yanaşı, elə Bakıya qarşı müxtəlif gülünc iddialar səsləndirən Britaniya mətbuatı da bunu etiraf etmək məcburiyyətində qaldı. Çünki İspaniyanın paytaxtı ingilislərin fanat dalğası ilə bacara bilmədi. Nə çılğın davranışları ilə, nə azarkeşlərdən sonra yığılıb-qalmış zibil təpələri ilə, nə də digər problemlərlə. Madrid, hətta stadionda tələb olunan təhlükəsizliyi belə, lazımı səviyyədə təşkil edə bilmədi (yarıçılpaq qızın stadionun ortasına qaçması və s. hadisələr), o cümlədən, saxta bilet satışı dələduzluğunun qarşısını da almağa müyəssər olmadı.





© Mercury Press & Media Ltd.

## Hələ bu harasıdır..?

Artıq bir çox beynəlxalq KİV-lər 33 yaşlı ingilis azarkeşinin tam şəkildə soyunaraq, Madridin mərkəzində və azarkeş kütləsinin ortasında əxlaqsız hərəkətlərini (mastrubasiya) əks etdirən videosunu yayıblar. İspaniyanın "El Mundo" qəzeti yazır ki, həmin azarkeş italiyalı turist xanıma qarşı zor gücü və əxlaqsız hərəkət tətbiq edib və nəticədə, turist xəstəxanaya yerləşdirilib. Hələ bu, harasıdır? İngilis azarkeşin vəhşi və qeyri-insani davranışının qarşısını almaq istəyən polis belə, onunla bacara bilməyib. Belə ki, yüksək alkoqol və ehtimal edilən narkotika təsiri altında olan azakeşi saxlamağa çalışan polisdən 6-sı döyülüb, yalnız əlavə dəstək gələndən sonra onu saxlamaq mümkün olub.

## Bakıda belə halları təsəvvürə gətirmək olardımı?

Onu da, qeyd edək ki, Azərbaycanın paytaxtından fərqli olaraq, Madriddə kütləvi həbslər və özlərini normal aparan azarkeşlərin döyülməsi faktları da qeydə alınıb. "İspan polisi bara daxil olaraq, "Tottenhem"in 50 fanatını heç bir səbəb olmadan döyüb. Onların bir çoxu ciddi travmatik zədələr alaraq, xəstəxanalara qaldırılıblar" deyə Britaniya KİV-ləri yazır.

İnsidentlərin bir çoxu biletlərlə bağlı olub. Polis 2 saxta bileti 8400 avroya satmaq istəyən qadını saxlayıb. Bundan əlavə, polis daha 3 italyanı və daha 6 şəxsi saxlayıb. Belə ki, onlar saxta biletlərlə yanaşı, həm də saxta futbol atributikaları satıblar. Ən dəhşətlisi isə, budur ki, "The Telegraph"ın yazdığına görə, Madridə axın etmiş fanatların yarıdan çoxu saxta biletlərə sahib olublar. UEFA-dan bildirilib ki, finala satılan saxta biletlər rekord həddə çatıb. Bununla bağlı, oyun günü 63 min azarkeş tutumuna sahib olan stadionda buraxılış sistemi sərtləşdirilib. O cümlədən, UEFA fanatları qara bazarlarda dələduzlardan ehtiyat etməyə çağırıb. Həmin dələduzlar qara bazarlarda özlərini stüard kimi təqdim edərək, saxta biletləri satmağa çalışıblar. Yaxud biletləri yoxlamaq adı altında özlərində olan saxta biletləri həqiqi biletlərlə dəyişərək, azarkeşlərə qarşı dələduzluq törədiblər.

Bənzər dələduzluqla tanınmış tenor Vinn Evans da qarşılaşıb. O bildirib ki, "onlayn" agentliyə 7 min funt ödəyərək, 2 bilet alıb ki, azarkeşi olduğu "Tottenhem"in Madrid finalını canlı izləsin. BBC-nin qeyd etdiyinə görə, sonradan ona bildirilib ki, biletlər əlçatmazdır.

"Görünür, onlar mənə biletləri satıblar və anlayanda ki, "onlayn" vasitəsi ilə daha çox qazana bilərlər, həmin biletləri yenidən satışa çıxarıblar" deyə Evans bildirib. O, sonradan məcbur olaraq, daha 2 bilet alıb. Lakin o, 7 min funt sterlinq ödənişini artıq geri ala bilməyəcəyinə əmindir.



Qeyd edək ki, hər iki kluba təxminən 17 min bilet ayrılmışdı. UEFA-nın rəsmi saytında biletlərin qiyməti 70-600 avro arasında dəyişsə də, onlar min və daha artıq avroya satılıblar.

## "Liverpul"un sahibi və əfsanəvi futbolçuları stadiona piyada getmək məcburiyyətində qalıblar

Beləliklə, Madrid digər problemlərlə yanaşı, nəqliyyat məsələsində də ciddi sarsıntılara məruz qalıb. Stadiona gedən yollarda nəhəng və kilometrlərlə uzanan tıxaclar yaşanıb. "Liverpul"un sahibi Con Henri və klubun əfsanələri Kenni Dalqiış və Yan Raş maşından düşərək, stadiona tərəf piyada getmək məcburiyyətində qalıblar. Bu barədə isə, Britaniyanın digər nəşri - "Irish Mirror" yazıb.

Azarkeşlər, həmçinin, 31 may-2 iyun tarixlərində Mariddə otellərin və kirayələrin çox baha olmasından da şikayət ediblər. Həmçinin, Madridin "fan-zona"sı da azarkeşlər üçün bağlı olub. Lakin xatırladaq ki, Avropa Liqasının Bakı finalında azarkeşlər Olimpiya Stadionuna çox rahat şəkildə gediblər. Onlar üçün xüsusi avtobuslar ayrılıb. Bakı "fan-zona"sını isə qarşılaşmadan öncə, bağlamayıblar və orada quraşdırılmış böyük ekranda finalı izləmək mümkün olub. O cümlədən, azarkeşlərin Bakıda ciddi insidentləri də yaşanmayıb və final öz yüksək təşkilatçılığı ilə tarixə yazılıb.

## İngilis futbol eksperti Brayan Uirli: "Azərbaycanın paytaxtındakı hazırlıq və təşkilat səviyyəsindən, infrastrukturdan, təhlükəsizliyin təminatından vəcdə gəldik"

Sonda isə, İngiltərənin ən məşhur futbol ekspertlərindən olan Brayan Uirli BBC-yə verdiyi açıqlamasının özü bir sıra həqiqətləri ehtiva edib. O bildirib ki, Madriddən fərqli olaraq, Bakıdakı finalın təşkili çox yüksək səviyyədə olub. "Bakı uzaq olsa da, oradakı matçın təşkili əla idi. Şəhər çox təmiz, təhlükəsiz, stadiona gediş rahat. Madrid əsl cəhənnəm oldu. Çempionlar Liqası tarixində ən pis təşkil olunmuş matçdı. Mən və İngiltərədən "Çelsi"-"Arsenal" oyununu seyr etmək üçün Bakıya getmiş on minlərlə fanat qarşılaşmaya ev sahibliyi edən Azərbaycanın paytaxtındakı hazırlıq və təşkilat səviyyəsindən, infrastrukturdan və təhlükəsizliyin təminatından vəcdə gəldik".

Bax, reallıq və gerçəklik də budur. Çox yəqin ki, Bakı finalına qədər səs-küy yaradan bəlli medialar və ayrı-ayrı dairələr üçün bu kimi etiraf həm də soyuq düş effektini verəcək.

**RÖVŞƏN NURƏDDİNOĞLU**

# Azərbaycanın enerji siyasəti bütövlükdə Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə strateji töhfələr verir

*Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Aydın Hüseynovun yap.org.az-a müsahibəsi*

***- Aydın müəllim, bildiyimiz kimi Bakıda XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransı, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisi keçirilir. Ümumiyyətlə, Azərbaycanın həyata keçirdiyi enerji siyasətinin əhəmiyyəti nədən ibarətdir?***

-Bu gün Azərbaycan Respublikası özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan birinə çevrilib. Ölkəmiz milli maraqlara müvafiq olaraq həyata keçirilən praqmatik siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu kimi çıxış edir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilmir.

Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması regional miqyasda hazırkı əməkdaşlığın səmərəli nəticələridir.

Şübhəsiz ki, regionda bu günə qədər həyata keçirilən və əməkdaşlığa təkan verən layihələrdə Azərbaycanın siyasi iradəsi və qətiyyəti öz sözünü deyib. Digər tərəfdən, Azərbaycan enerji ehtiyatlarının ixracında çoxvariantlı nəqletmə sisteminə - diversifikasiya edilmiş təchizata üstünlük verir və dünyanın aparıcı dövlətləri tərəfindən etibarlı strateji tərəfdaş kimi qiymətləndirilir. Müstəqil enerji siyasəti ölkəmizin beynəlxalq arenadakı mövqeyini, həmçinin regionun və regionətrafı coğrafiyanın geostrateji təhlükəsizliyini daha da gücləndirir. Eyni zamanda, Azərbaycanın səmərəli enerji siyasəti yeni əməkdaşlıq platformaları müəyyənləşdirməklə yanaşı, Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə strateji töhfələr verir.

***-Ölkəmizlə enerji sahəsində tərəfdaşlıq nə kimi dividendlər vəd edir? Məlumdur ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələri mühüm geostrateji əhəmiyyətə malikdir...***

-Bütövlükdə, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verən Azərbaycanla enerji sahəsində tərəfdaşlıq əhəmiyyətli strateji dividendlər vəd edir və çoxşaxəli tərəfdaşlıq nöqteyi-nəzərindən yüksək qiymətləndirilir. Çünki, Azərbaycanın praqmatik enerji siyasəti regional və qlobal miqyasda enerji təhlükəsizliyinə xüsusi əhəmiyyət verən aparıcı dövlətlər üçün mühüm önəm daşıyır. Digər tərəfdən, Azərbaycanın balanslaşdırılmış xarici siyasət strategiyası regionun siyasi və iqtisadi, həmçinin enerji təhlükəsizliyinin təmin olunmasına birbaşa töhfələr verməkdədir. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Beləliklə, dünya dövlətləri Azərbaycanın siyasi əhəmiyyətini yüksək qiymətləndirir, ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda enerji təhlükəsizliyi sahəsində əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu qəbul edir. Məhz XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi və konfransında ifadə olunan fikirlər də bunu deməyə əsas verir.



Onu da qeyd edim ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələrinin geostrateji - siyasi və iqtisadi əhəmiyyəti beynəlxalq miqyasda olduqca yüksək qiymətləndirilir. Çünki Azərbaycanın bu sahədə həyata keçirdiyi strateji kurs həm də ölkəmizlə əməkdaşlıq edən dövlətlərin enerji təhlükəsizliyinin, milli maraqlarının təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan, hazırda reallaşdırılan Cənub Qaz Dəhlizi layihəsi böyük önəm kəsb edir. Prezident İlham Əliyev XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi və konfransının, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında çıxışı zamanı bildirib ki, Cənub Qaz Dəhlizinin reallaşması tarixi hadisədir: "Bu, nəhəng infrastruktur layihəsi həm ölkəmiz, həm də digər ölkələr üçün böyük əhəmiyyət daşıyır. Cənub Qaz Dəhlizinin reallaşması üçün bir çox önəmli addımlar atılmışdır və əlbəttə ki, burada beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. Çünki əgər genişmiqyaslı beynəlxalq əməkdaşlıq olmasaydı, bu nəhəng layihəni icra etmək mümkün olmazdı. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında imzalanmış TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Keçən il - düz bir il bundan əvvəl mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Beləliklə, bu böyük layihənin icrası istiqamətində çox önəmli addımlar atılmışdır. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi dörd hissədən ibarətdir. Onlardan üçü artıq reallaşıb, dördüncü layihə də uğurla icra edilir".

Göründüyü kimi, Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılması fonunda Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu daha da artacaq. Bütövlükdə, Cənub Qaz Dəhlizi layihəsi Avropanın enerji təhlükəsizliyinə sanballı töhfədir.

***- Dünyanın bir çox dövlətləri, o cümlədən ABŞ Azərbaycanın enerji siyasətini yüksək qiymətləndirir. Bu baxımdan, bugünlərdə Birləşmiş Ştatların Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda qeyd olunan məqamlar nə kimi önəm kəsb edir?***

- Azərbaycanın müstəqil strateji kursu, eləcə də uğurlu enerji siyasəti dünya siyasətinin başlıca tendensiyalarını müəyyənləşdirən güc mərkəzləri tərəfindən yüksək qiymətləndirilir. Son bir neçə gündə ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə iki məktub ünvanlaması Birləşmiş Ştatların Azərbaycana yüksək önəm verdiyini və bölgədə liderlik rolunu aydın göstərir.

ABŞ Prezidenti 28 May Respublika Günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı məktubda qeyd edir ki, dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Məktubda Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələrin və Cənub Qaz Dəhlizi təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Prezident İlham Əliyevin liderliyi dəyərləndirilir. Cənab Trampın məktubunda Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımlar alqışlanır. ABŞ Prezidenti həmçinin iki ölkə arasında tərəfdaşlığın gələcək illərdə də inkişaf etməsini arzulayır.

ABŞ Prezidenti Donald Trampın Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda isə qeyd edir ki, Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmayıb. Bildirilir ki, Cənub Qaz Dəhlizi daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir. Məktubda daha sonra deyilir: "Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır". Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davamı etdirilməsində Azərbaycanın səylərini dəstəkləyir. ABŞ Prezidenti eyni zamanda Azərbaycanın iqtisadi uğurlarının bütün regiona sabitliyin gətirilməsindəki rolunu da vurğulayır.

Bir sözlə, Donald Tramp Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi tərəfdarıdır. Bu isə onu deməyə əsas verir ki, ikitərəfli münasibətlər yaxşı perspektivə malikdir, tərəflər arasında əməkdaşlığın uğurla davam və inkişaf etdirilməsi həm iki ölkə, həm də region üçün strateji əhəmiyyət kəsb edir.

## Nazir: "Azərbaycanda innovativ transfer mərkəzləri yaradılacaq"




Azərbaycan startapları artıq beynəlxalq bazarlara çıxış əldə ediblər. AZƏRTAC xəbər verir ki, bu barədə Bakıda keçirilən "Made in Azerbaijan: İnnovasiyalar və Texnologiyalar Forumu"ndakı çıxışında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə deyib. R.Quluzadə bildirib ki, Azərbaycanda innovativ transfer mərkəzləri yaradılacaq: "Mingəçevir Texnologiyalar parkının rezidenti "Hightech Invest" şirkəti artıq "Acer" komputerlərinin istehsalına başlayıb. Ölkə başçısının Azərbaycanda innovativ inkişaf sahəsində effektivliyin artırılması və koordinasiyalı işin təmin edilməsinə dair Sərəncamı proseslərin daha da sürətlənməsinə təkan verdi. Sərəncamda bir sıra mühüm tapşırıqlar verilib. Biz bu vəzifələrin icrasını təmin etmək üçün fəaliyyətimizi bir neçə istiqamətdə aparırıq. Birincisi yerli sahibkarlıq subyektlərinə müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasına köməklik göstərməkdir. Bu məqsədlə texnoloji transfer məkrəzləri yaradılacaq və sahibkarlara müvafiq xidmətlər təqdim olunacaq. İkinci istiqamət müvafiq dəstək mexanizmlərinin tətbiq edilməsidir. Burada innovativ layihələrə, o cümlədən startaplara güzəştli kredit verilməsi nəzərdə tutulub. Artıq nazirlik bu istiqamətdə bir neçə ildir fəaliyyət göstərir. Bu müddətdə startaplara 117 qrant, 16 sahibkarlıq subyektinə isə güzəştli kreditlər verilib. Dəstəyimiz bundan sonra da davam edəcək. Üçüncü istiqamət isə innovativ sahibkarlığın təbliğidir. Artıq bu istiqamətdə də bir sıra addımlar atılıb. Bundan əlavə, biz I2B layihəsi çərçivəsində sahibkarların biznesə dəstək verməsini istəyirik".

## "Madriddə tamamilə ayrı bir mənzərənin şahidi olduq"



"Bakıda keçirilən Avroliqa ilə Madriddə keçirilən Çempionlar liqasının final oyunlarını müqayisə edəndə belə bir nəticə çıxarmaq olar ki, Azərbaycanda mədəniyyət, təşkilatçılıq, bilet satışı, azərkeşlərə olan münasibət, stadionda qaydaların nizamlanması Madriddən çox yüksək idi". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.

Deputatın sözlərinə görə, Bakıda həm oyuna hazırlıq, həm də oyunun keçirilməsi üçün şərait ideal olub: "Azərbaycan futbolu izləməyə gələn bütün azərkeşlər çox məmnun qalmışdır. Heç bir insident və ya narazılıq halı müşahidə olunmamışdır. Amma Madriddə tamamilə ayrı bir mənzərənin şahidi olduq. Saxta biletlərin satışından başlamış təhlükəsizliyin təminatına qədər hər şey qüsurlu idi. Demək olar ki, final oyununun təşkilatçılığından hamı narazı qalmışdır. Gör baxın Azərbaycanda qarayaxma kampaniyasını təşkil edənlərin heç səsləri çıxır? Təbii ki, çıxmayacaq da. Çünki, idman artıq siyasiləşib. İkili standartlar mövcuddur. Məhz bunun göstəricisi idi ki, Azərbaycana qarşı sifarişli əllər uzanmışdı. Azərbaycan isə hamıya öz yüksək mədəniyyətini nümayiş etdirərək layiqli cavabını verdi".

***Ceyhun Rasimoğlu***

## Bakı Beynəlxalq Avtovağzal Kompleksi Ramazan bayramı ilə əlaqədar gücləndirilmiş iş rejiminə keçir

Bakı Beynəlxalq Avtovağzal Kompleksi (BBAK) Ramazan bayramı ilə əlaqədar iyunun 4-dən 10-dək gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. BBAK-dan AZƏRTAC-a bildirilib ki, sərnişinlərin rahatlığının təmin olunması üçün bütün zəruri tədbirlər görüləcək. Sərnişin sıxlığının tənzimlənməsi məqsədilə ehtiyat avtobuslar sərnişindaşıma prosesinə cəlb olunacaq.

Sərnişinlər yaranacaq suallarla bağlı (012) 406-01-58/59 nömrəli məlumat mərkəzi, kassaların yanında yerləşən məlumat bürosu və perron nəzarətçilərinə müraciət edə bilərlər. Səfər biletlərini reysin yola düşməsinə 10 gün qalmışdan başlayaraq avtovağzalın və Nizami küçəsi, 126a ünvanında yerləşən "Silkway" turizm şirkətinin kassalarından və onlayn qaydada "avtovağzal.az" saytı üzərindən əldə etmək mümkündür. Bakı Beynəlxalq Avtovağzalı yalnız avtovağzal ərazisindən fəaliyyət göstərən avtobuslara nəzarət edir. Qeyri-qanuni sərnişindaşıma ilə bağlı yarana biləcək hər hansı bir hadisəyə BBAK cavabdehlik daşımır.

# Azərbaycanı ziyarət etmiş əcnəbilərin sayında artım mövcuddur

***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz sosial-iqtisadi inkişaf parametrlərinə görə, dünyada analoqu olmayan uğurlara imza atıb. Cəmiyyət həyatının bütün sahələri yenilənib və müasirləşib, əhalinin rifah halı müqayisəolunmaz dərəcədə yaxşılaşıb, sabitlik və təhlükəsizlik mühiti tam təmin edilib, respublikanın beynəlxalq nüfuzu daha da artıb. Azərbaycan Prezidenti İlham Əliyevin yaranan yeni çağırışlara və ölkənin reallıqlarına uyğun qəbul etdiyi mühüm qərarlar, imzaladığı müvafiq fərman və sərəncamlara əsasən, milli iqtisadiyyatımızın ayrı-ayrı sahələri üzrə aparılan islahatlar böyük aktuallıq tələb edir. Bu gün Azərbaycan qeyri-neft sektorunun yüksək inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycanın artıq neftdən asılılığı aradan qaldırılır.***



Qeyri-neft sektorunun bir sıra sahələrinin yüksək inkişafı, o cümlədən, turizmin inkişafı ölkəmizin iqtisadiyyatının artmasına töhfələrini verir. Azərbaycanda artıq turizm intensiv sürətlə inkişaf edir. Buna səbəb ölkənin dünyanın 11 iqlim tipindən 9-na malik olması, dağı, meşəsi, dənizi, çayı, ecazkar təbiəti, geniş sahələri, eləcə də, dövlət tərəfindən bu sahəyə göstərilən diqqətdir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Azərbaycan turizminin inkişafına dair dövlət proqramları turizm sənayesinin sürətli inkişafına təkan oldu. Sahibkarlığın İnkişafı Fondunun xətti ilə bu vaxtadək Azərbaycanda turizm sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə 45,5 milyon manat güzəştli kredit də verilib.

Ölkəmiz də iqtisadi inkişaf, yenidənqurma və abadlıq işlərinin görülməsi ölkənin daxili potensialı nəticəsində, Azərbaycanda turizmin sürətli inkişafına gətirib çıxarırıb. Bütün bunlarla yanaşı, "Şahdağ" Qış-Yay Xizək Kurortu - xizək infrastrukturu yaradılıb ki, bu da, dünya səviyyəli mərkəzə çevrilib. Bu, ölkəmizə həm yeni investisiyalar gətirir, həm də on minlərlə yeni iş yerlərinin yaradılmasına səbəb olub.

Ölkəmizin turizm siyasəti kompleks xarakter daşıyır. Bununla yanaşı, bu sektorda xidmət səviyyəsinin getgedə yüksəlməsi də xarici ölkələrin vətəndaşlarının ölkəmizə marağının artıran amillər sırasındadır. Statistik rəqəmlərə nəzər salsaq, turizm sənayesində əldə olunan uğurların nəticələrin görmüş olarıq. Təkcə bu ilin aprel ayında Azərbaycana gələn əcnəbilərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,9 faiz və ya 19,4 min nəfər artaraq 238 minə çatıb. Ən böyük artım 22 faiz olmaqla (10,2 min), Gürcüstandan gələn ziyarətçilərin arasında müşahidə olunub. Birləşmiş Ərəb Əmirliklərindən 16,2 faiz, Səudiyyə Ərəbistanı 101,3 faiz və İsraildən 70,1 faiz gələn qonaqların sayının artması ilə Yaxın Şərq regionundan 30 min xarici vətəndaş gəlib, bununla da, 12 faiz artım baş verib.

Cənubi Asiyadan Hindistan, Orta Asiyadan isə Türkmənistan, müvafiq olaraq, 95 faiz və 144 faiz artımla diqqət çəkir. Ümumilikdə, Cənubi Asiyadan 35,4 faiz və Orta Asiyadan 44,2 faiz gələn səyahətçilərin sayı yüksək sürətlə artmaqdadır. Türkiyədən gələn səyahətçilər üçün 10 faiz artım müşahidə olunub - apreldə bu ölkədən gələnlərin sayı 25,2 min nəfər təşkil edib. Yekun olaraq, 2019-cu ilin ilk dörd ayının nəticələrinə görə, Azərbaycanı ziyarət etmiş əcnəbilərin sayında artım mövcuddur. Belə ki, 2018-ci ilin eyni dövrü ilə müqayisədə xarici qonaqların sayı 2 min nəfər artıb və hesabat dövrü ərzində ölkəni ümumən 848 min xarici vətəndaş ziyarət edib.

Nəzərə alaq ki, aprel ayında ölkəmizə gələn turistlərin sayı daha çoxdur, təbii ki, ölkəmizdə keçirilən qlobal miyqaslı idman tədbirlərinin, xüsusilə də, "Formula 1" yarışlarının rolunu xüsusi vurğulamaq lazımdır. Eləcə də, səyahət və turizm sənayesinin Azərbaycanın ümumi daxili məhsuluna birbaşa təsiri əvvəlkilərdən çoxdur. Turizm sənayesinin qeyri-neft sektorunda payı daha da yüksəlməkdədir.

Göründüyü kimi, turizm sahəsində kifayət qədər uğurlar var. Bu sektorda xidmət səviyyəsinin get-gedə yüksəlməsi xarici ölkələrin vətəndaşlarının ölkəmizə marağını ilbəil artırır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycanda əsl gerçəkləri hər kəs gəldi və gördü"



"Biz həqiqətən də UEFA Avropa liqasının final oyununu Bakıda keçirməklə bir daha Azərbaycanın ən yüksək təşkilatçılıq bacarığının olduğunu dünyaya göstərmiş olduq". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Siyasi şərhçinin sözlərinə görə, Bakıda keçirilən Avropa liqasının finalı ərəfəsində və finaldan sonra ölkəmizə gəlib-gedəb turistlər, tamaşaçılar heç biri ölkəmizdən narazı getmədilər: "Çünki hər şey yüksək səviyyədə təşkil olunmuşdu, qayda-qanun, nizam-intizam öz yerində idi. Hətta dünyanın ən aqressiv azarkeşləri olan ingilis azarkeşlər belə buradan razı getdilər. Düzdür, müəyyən qüvvələr Azərbaycana qarşı təbliğat aparırdılar və oyuna qarayaxmağa çalışırdılar. Amma o qarayaxmalar final oyunu keçirilən gün darmadağın oldu. Ona görə ki, əsl gerçəkləri hər kəs gəldi və gördü.

Madriddə keçirilən Çempionlar liqasının finalına gəlincə deyərdim ki, oranı bizim qədər gözdən salmağa çalışanlar yox idilər. Məhz Çempionlar liqasının final oyunu keçirilən gün və təbiidir ki, oyundan sonrakı müddətdə baş verənlər bir daha göstərdi ki, hətta İspaniya belə Azərbaycanla ayaqlaşa bilmir. Orada istər azarkeşlərin can güvənlikləri probleminin olması, istərsə də stadiona gediş zamanı yollardakı uzun tıxaclar, eyni zamanda saxta bilet satışının təşkil olunması, saxta nəzarətçilərin ortaya çıxması və s. bütün bunlar əlbəttə ki, İspaniyada baş verdi. Lakin Azərbaycanda bunların heç biri baş vermədi. Bu baxımdan artıq beynəlxalq, xüsusən də Avropa mediasında müzakirələr aparılır. Biz xüsusilə də sosial media üzərindən paylaşımlara diqqət etdik. Orada açıq mətnlə yazılırdı ki, Bakıdakı oyun həqiqətən də çox yüksək səviyyədə idi. Hətta qeyd olunurdu ki, Çempionlar liqasının final oyunu da Bakıda keçirilsə idi daha yaxşı olardı. Bu bir daha göstərir ki, Azərbaycan həqiqətən də bu məsələlərdə kifayət qədər ustalaşıb".

***Ceyhun Rasimoğlu***







# Gənc sərhədçilər Vətənə sədaqət andı içiblər

***Dövlət Sərhəd Xidmətinin (DSX) Yevlaxdakı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, gənc əsgərlər təntənəli şəkildə hərbi andı qəbul etdikdən sonra mərasim açıq elan olunub.***

Dövlət himninin səslənməsi ilə başlayan mərasimdə çıxış edənlər ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərini, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırıldığını xüsusi qeyd ediblər.

Çıxışlarda Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərilərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyini xidmətdə qazanılmış yüksək nailiyyətlərlə qarşılayacaqlarına əminlik ifadə olunub.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altında olan torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının təmin edilməsi, Vətənimizin bütün sərhədlərinin mühafizə altına alınması uğrunda savaşa daim hazır olduğu xüsusi vurğulanıb. Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin mühafizəsinin DSX-nın Sərhəd Qoşunlarına həvalə olunmasının şərəf və qürur olmaqla yanaşı, eyni zamanda, Ali Baş Komandanın Azərbaycan sərhədçisinə ali etimadının ifadəsi kimi dəyərləndirilib.

Çıxış edən valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər. Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb. Andiçmə mərasimi başa çatdıqdan sonra valideynlərlə görüş keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan, əleyhinə olan iddiaları alt-üst etdi

***Dünya ictimaiyyətinin Bakıya yönələn diqqəti, milyonlarla idman azarkeşinin, hətta beynəlxalq təşkilatların və qurumların final iyunu gözləntiləri həssas qlobal mövzuya çevrilsə də, yekunda gözlənildiyindən də möhtəşəm alındı. Azərbaycan yenidən, bütün dünyaya sübut etdi ki, istənilən nüfuzlu tədbiri ən yüksək səviyyədə keçirmək, ən mötəbər idman yarışlarına ev sahibliyi etmək iqtidarındadır.***

Nəzərə almaq lazımdır ki, Avroliqanın finalı ölkəmizdə keçirilən ilk mötəbər tədbir deyildi. Azərbaycanda I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, “Formula-1” kimi nüfuzlu yarışlar, hətta “Eurovision” Mahnı Müsabiqəsi kimi tədbirlər çox uğurla keçirilib. Bir sözlə, artıq Azərbaycan dünya miqyaslı tədbirlərə ev sahibliyi etmək üçün böyük təcrübəyə malikdir və belə qlobal yarışlarda özünü dəfələrlə təsdiqləyərək, etibar qazanıb.

## Ölkəmiz Cənubi Qafqazda, eləcə də, MDB məkanında lider statusundadır

Xüsusilə, vurğulamaq yerinə düşərdi ki, dünyanın diqqət mərkəzində olan yarışları, beynəlxalq tədbirləri keçirmək üçün müasir infrastruktur şəraitinin olması, ələlxüsus, təhlükəsizlik təminatı vacibdir və bu, beynəlxalq miqyasda mütləq şəkildə nəzərə alınır. İnfrastrukturu müasir dövrün tələblərinə cavab verməyən, təhlükəsizlik təminatı olmayan ölkədə belə yarışların keçirilməsinə razılıq belə verilməz. Əgər Azərbaycanda belə mötəbər yarışların, beynəlxalq tədbirlərin keçirilməsinə dəfələrlə razılıq verilibsə, deməli, ölkəmizdə olan stabillik, təhlükəsizlik, müasir infrastrukturun mövcudluğu beynəlxalq miqyasda, nəinki qəbul olunur, bu, qərarla rəsmi şəkildə etiraf da olunur. Məhz Azərbaycanda belə beynəlxalq əhəmiyyətli tədbirlərin və yarışların baş tutması, uğurla yekunlaşması, etiraf etməyə əsas verir ki, ölkəmiz, bu baxımdan da, Cənubi Qafqazda, eləcə də, MDB məkanında lider statusundadır.

İngiltərənin özündə - Londonda baş tutan görüşlərdən sonra davalar və qarşıdurmalar dünya ictimaiyyəti üçün sirr deyil. O da, sirr deyil ki, ingilislər çox emosianaldır və məhz futbol matçından sonra qarşıdurmalara meyillidirlər. Bu çılğınlığın fonunda ingilis azarkeşlərin Bakıda, özü də sərxoş vəziyyətdə müəyyən insidentə səbəb olacaqlarını proqnoz edənlər də var idi. Hətta bu çılğınlığı, bu emosianallığı nəzərə alaraq, Azərbaycanın paytaxtında böyük bir qarşıdurma olacağına ümid edənlər də az deyildi və bu məqsədlə əvvəlcədən düşünülmüş qara piar da aparırdılar. Sözsüz ki, bu, Azərbaycanı gözü götürməyənlərin-ermənilərin, ermənipərəslərin apardığı təbliğat idi. Məqsəd isə ölkəmizi gözdən, nüfuzdan salmaq və reytinqinə xələl gətirməkdən başqa bir şey deyildi. Amma niyyəti pis olanların gözləntiləri özünü doğrultmadı və Azərbaycan bu sınaqdan da üzü ağ və alnı açıq çıxdı.

## Azərbaycan paytaxtının yarış üçün seçilməsi ağzıgöyçəklərin iddialarının boş və cəfəngiyyat olduğunu təsdiq edən fakt kimi kifayət idi

Ölkəmizi gözü götürməyən qüvvələrin müxtəlif qüsurlar axtarması, əslində, əvvəlcədən də çox məntiqsiz görünürdü. Çünki bu yarışı keçirmək üçün Azərbaycanda infrastrukturun lazımi səviyyədə olmadığını iddia edənlər, bilməli idilər ki, əgər infrastruktur yüksək səviyyədə olmasaydı, bu yarış üçün məkan Bakı seçilməzdi. Yəni Azərbaycan paytaxtının yarış üçün seçilməsi ağzıgöyçəklərin iddialarının boş və cəfəngiyyat olduğunu təsdiq edən fakt kimi kifayət idi.




Bəlkə də bu cəfəngiyyatı dərk edənlər özləri başqa varianta, erməni əsilli oyunçunun, Henrix Mxitaryanın üzərində belə bir anti-Azərbaycan kampaniyasına əl atırdılar. Yəni bölgədə ən həssas məqamdan istifadə etməyə belə gedirdilər ki, ölkəmizə qarşı hücum edə bilsinlər. Bir növ cəmiyyətdə bir “Mxitaryan şou”su yaratmaq istəyirdilər. Çox acınacaqlı haldır ki, bəzi beynəlxalq qurumlar belə, ikili standartların fonunda, bu oyunlara alət olmaqdan da çəkinmirdilər. Mxitaryanın oyunda iştirak etməkdən imtina etməsini bayraq edərək müxtəlif qərəzli çıxışlara və bəyanatlara da yol verilirdi. Halbuki Azərbaycanın idmanı siyasətə qarışdırmadığı, erməni əsilli futbolçuya təhlükəsizlik təminatı verdiyi də hamısına bəlli idi. Bu baxımdan, erməninin bu şousu da məntiqi əsassız bir oyuna çevrildi və tez bir zamanda uğursuz nəticələndi.

## Sərxoş ingilis azarkeşlərinə qarşı, insident yaratmaq istəyənlərə münasibətdə Azərbaycan dözümlü davranış nümayiş etdirib

Otellərin belə yetəri sayda olmamasını iddia edənlər, yüksək səviyyədə qarşılandıqları kimi, yüksək səviyyədə yola da salındısa, bu, o deməkdir ki, ermənilərin və ermənipərəst qüvvələrin dövriyyəyə buraxdıqları cəhdləri də alınmadı. Hətta matçın keçirildiyi gün azarkeşlərin istər stadionda matçı seyr etməsi, istərsə də geriyə dönüşü problemsiz təşkil olundu və sıxlıq da yaranmadı. Finaldan öncəki günlər də, final günü də hər hansı bir problemin, insidentin olmamasını tədbirin yüksək səviyyədə təşkil olunduğunu aydın nümayiş etdirdi və antitəbliğat aparmaq istəyənlərin ümidlərini puça çıxardı. Əslində, ingilis çılğınlığının fonunda bu qədər rahat yarış keçirilməsi tarixi hadisə kimi qeydə alındı.

Tezliklə ingilislər belə, etiraf edəcəklər ki, sərxoş ingilis azarkeşlərinə qarşı, insident yaratmaq istəyənlərə qarşı Azərbaycan dözümlü davranış nümayiş etdirib. Etiraf edəcəklər ki, ölkəmiz həm təhlükəsiz ölkə, həm yüksək səviyyədə infrastruktura malik dövlət olmaqla yanaşı, eyni zamanda, ümumiyyətlə, Azərbaycan beynəlxalq yarışların keçirilməsi üçün tam rahat şəkildə məkan kimi seçilə bilər.

## Bir sıra xarici KİV-lərin ermənilərin əks-təbliğatının rüporuna çevrilməsi, onların özləri üçün çox acınacaqlıdır

Bir çox xarici mətbuat səhifələrində, ələlxüsus, erməni mətbuatında müxtəlif yalan və böhtan üzərində qurulmuş söz-söhbətlər dövriyyəyə buraxıldısa da, bunun mənasız və əsassız olduğu ən tez zamanda özünü göstərdi. Təbii ki, erməni mətbuatında belə qarayaxmaların olacağı da gözlənilən idi. Hətta Mxitaryan kimi bir erməni əsillidən istifadə edəcəkləri ağla gələndir. Amma bir sıra xarici KİV-lərin ermənilərin əks-təbliğatının rüporuna çevrilmələri onların özləri üçün çox acınacaqlıdır. Bir zaman erməni ssenarisi ilə, “ingilis azarkeşlər Azərbaycana getməyəcəklər” deyənlər 60 min azarkeşin yarış zamanı stadiona toplaşması faktı qarşısında utanmaq məcburiyyətindədirlər.

Bir çox uyğunsuz iddialarının reallıqdan uzaq olduğunun şahidi olan qüvvələrin əlində oyuncaq olan KİV-lər indi də oyunun sönük keçdiyini və emosionallığın az olduğunu ictimaiyyətə çatdırmağa çalışırlar. Oyunun cansıxıcı olduğunu göstərmək istəyirlər. Bunu ölkəmiz üçün qüsur kimi təqdim etmək niyyəti güdürlər. Maraqlıdır, əvvələ, yarış keçirilən heç bir ölkə emosiya deyilən bir öhdəliyi bu vaxta qədər heç vaxt üzərinə götürməyib və heç bir ölkəyə də bu barədə irad tutulmayıb. Heç tutula da bilməz və bu məntiqə belə uyğun deyil. Azarkeşlərin keçirdiyi hiss və həyəcanı idarə etmək, buna istiqamət vermək, bunu təşkil etmək heç ağlasığan ola bilməz. Digər tərəfdən, ingilislər emosionallığa görə Azərbaycanı deyil, öz azarkeşlərini niyə qınamırlar?

Yaxud final oyununda 5 qol sevinci izlənilən matçın cansıxıcı olması iddiası necə, gülünc səslənmirmi? Bəlkə də qol sevinci yaşanmasaydı, buna cansıxıcı adı qoymaqda kimlərsə özündə bir cəsarət tapa bilərdi. Amma iki nəhəng komandanın final oyununda belə bir hesab cansıxıcı olmaq fikirlərini tamamilə alt-üst edir. Həm də axı, əgər azarkeş üçün oyun cansıxıcı belə keçsə, yenə də bu məsələdə təşkilatçı ölkəni qınamaq absurddur. Bu məsələdə ingilislər gedib öz komandalarını, onların oyunlarını, uzaqbaşı maraqsız oynadıqları ilə günahlandıra bilərlər. Ya da azarkeşlərini maraq göstərməməkdə suçlaya bilərlər.

## Azərbaycan, əleyhinə olan bütün iddiaların yalan olduğunu, final matçının təşkilatçılığı ilə təsdiq etdi

Təbii ki, bütün bunlar, yəni gülünc iddialar, mənasız nöqsan axtarışları, ondan xəbər verir ki, Azərbaycanın təşkilatçılıq etdiyi oyunda kimsə nöqsan tapa bilməyib və sadəcə, hansısa məqamları nöqsan olaraq qabartmaq istəyir. Çünki bu vaxta qədər hay-küy qopararaq, oyunun uğursuz alınacağını iddia edənlərin ümidləri qırıldı və ölkəmizin yüksək təşkilatçılıqla keçirdiyi oyun Azərbaycan əleyhinə olan bütün qüvvələrin iddialarını alt-üst etdi. Bu qüvvələrin əlinə oynayan KİV-lərin isə, apardığı qara piar heç bir məna daşımadı və ən tez zamanda boğuldu.

Çirkin və yalan üzərində anti-Azərbaycan kampaniyası aparanlar, növbəti dəfə özlərinin qərəzli olduqlarını sübut edənlər, yaxşı olardı ki, Avropada futbol yarışlarında, keçirilən oyunlardan sonra baş verən insidentləri xatırlasınlar. İkili standartları hər zaman Azərbaycana qarşı tətbiq etməkdə israrlı olanlar, öz gözlərində tiri görməyib, başqalarının gözündə tük axtarırlar və yaxşı bilirlər ki, köhnə qitədə, məhz elə İngiltərənin özündə futbol həyəcanı, oyundan sonra baş verən qarşıdurmalar, davalar heç bir ölkədə olan hadisələrlə müqaisəyə gəlməz. Bu baxımdan, ölkəmizdə keçirilən final oyununa ağız büzənlər, bilməlidirlər və bilirlər ki, bütün dünya ictimaiyyəti oyunların harada və necə keçirildiyindən və baş verən hadisələrdən xəbərdardır. Ona görə də, iddia etdikləri çatışmazlıqların, məhz özlərində olduğu halda, başqalarını ittiham etmək heç cür qəbul edilən deyil.

Sözsüz ki, Azərbaycan, əleyhinə olan bütün iddiaların yalan olduğunu final matçının təşkilatçılığı ilə təsdiq etdi. Bunu ingilis azarkeşləri də öz müsahibələrində etiraf etdilər. Burda - Azərbaycanda təhlükəsiz şəraitdə olduqlarını, təşkilatçılığın yükək səviyyədə olduğunu etiraf etdilər. Təbii ki, ölkənin rəsmi dairələrinin, dövlət orqanlarının olduqca səmərəli fəaliyyəti, mümkün problemlərin qabaqcadan müəyyənləşdirilməsi və onların aradan qaldırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi uğurla keçirilməsinin başlıca səbəbidir. Amma hər bir halda, Azərbaycan göstərdi ki, istənilən səviyyədə yarışları, tədbirləri yüksək səviyyədə təşkl etmək, uğurla keçirmək gücünə və iqtidarına malikdir.

***İnam HACIYEV***

# Bənzər xəyanətlər-bənzər sifətlər

*Ağrı dağı boyda daş düşsün Əli Kərimlinin başına*

***Bəlkə də oxucular məni qınayacaqlar ki, belə də qarğış olar? Olar! Belə alçaq, xəyanətkar, mənəviyyatsız və özünü AXCP-nin sədri sayan Əli Kərimliyə nə deyim. Hələ də bu günə kimi, Ə.Kərimlinin xaricə "istehsal" etdiyi "siyasi mühacirləri"nə tapşırıq verərək dövlətimizə, xalqımıza qarşı böhtanlar atması, müharibə çağırışları edən məxluqa nə deməliyəm? Həyatı boyu Ə.Kərimli erməni bicliyi ilə erməni həyasızlığı və işverənliyi edib. İndi bu gün "sosial şəbəkələrdə iddia edir ki, dünyada, o cümlədən, Avropada böhran yoxdur, dünyada heç bir böhran hökm sürmür". Fikirləşir ki, mitinq keçirmək fürsətini əldə etsə (ürəyində qalsın-R.), bəlkə nəyəsə nail ola bilər. Ay bədbəxtlər, nə qədər xəyallarla yaşayacaqsınız?***

### Siyavuş Novruzov: "Ə.Kərimli 5-3 nəfər qaçaq-quldur başına yığıb mitinq keçirməklə növbəti biabırçılıq nümayiş etdirmək istəyir"

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov bildirib ki, müxalifət başqa nə deyə bilməz: "Xüsusilə, AXCP sədri Ə.Kərimlidən nə gözləmək olar? Ə.Kərimlinin fikirləri erməni lobbisinin, Azərbaycanı istəməyən dövlətlərin, ölkəmizə qarşı təzyiq göstərməyə çalışan beynəlxalq qurumların fikirləri ilə üst-üstə düşür. Yəni bunlar eyni mənbədən istiqamətləndirilir. AXCP-dən istefa verən şəxslər də bildiriblər ki, Ə.Kərimli Azərbaycan xalqının maraqlarının deyil, başqa-başqa dövlətlərin, qurumların, xüsusilə, erməni lobbisinin maraqlarını həyata keçirməklə məşğuldur. O baxımdan, ölkədə görülən işlərə kölgə salmaq, mənfi fikir söyləmək, çox primitiv şəkildə, saxta rəqəmlərlə insanları çaşdırmaq, bilavasitə həmin təxribatçı qrupların planının tərkib hissəsidir".

S.Novruzov onu bildirib ki, Ə.Kərimli sübut etməyə çalışır ki, dünyada iqtisadi böhran yoxdur: "Hazırda bütün Şərqi Avropa, eləcə də, Avropanın digər hissəsinə aid olan ölkələr böhran içərisindədir. Elə təkcə Yunanıstanı götürək, bu ölkə hansı vəziyyətdədir?.. Ə.Kərimlinin Böyük Britaniya banklarında milyonlarla pulunun olması sübut olunub. Övladları ən bahalı universitetlərdə oxuyub, xaricdə bahalı evləri və mülkləri var. Bunları hansı vəsait hesabına əldə edib, əlbəttə, satqınçılıq və erməniyə nökərçilik etməklə. Ə.Kərimli 5-3 nəfər qaçaq-quldur başına yığıb, növbəti biabırçılıq etmək istəyir. Çünki cəmiyyət onları qəbul etmir. Ona görə də onlar tarixin arxivinə, özü də qara arxivinə birdəfəlik gedəcəklər. Çünki o, erməni lobbisinə xidmət edən, onlardan qrant alan bəzi insanlarla əlbir olub. Leyla Yunus kimi casusları canfəşanlıqla müdafiə etməsi də buradan qaynaqlanır".

### Sirkə nə qədər tünd olsa da...

Ataların dediyi kimi, "sirkə nə qədər tünd olsa, öz qabını çatladar". Bu gün sifarişlə çalışan dağıdıcı qüvvələr öz qərəzli planlarını reallaşdıra bilməyib, bundan sonra da, çirkin niyyətlərinə nail ola bilməyəcəklər. Çünki Azərbaycanda güclü xalq - iqtidar birliyi var və dəfələrlə bu birlik fors-major hallarda özünü göstərib və həmin qüvvələrin də Azərbaycanda suyu bulandırmaq cəhdlərinin perspektivi yoxdur. Odur ki, bulanıq suda balıq tutmaq istəyənlər bilməlidi ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icraçısına çevirə bilməyəcəklər. Çünki onların əsl mahiyyəti alət olmaqdır. Alətə çevrilən "siyasi məhbus" adı ilə çalışan Ə.Kərimli, Leyla Yunus, Xədicə İsmayıl, Natiq Adilov, Orduxan Teymurxan, Elşad Abdullayev, Hüseyn Abdullayev, Vidadi İsgəndərli, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev və bu kimi zəhərli siyasət rüşeyimlər sosial



şəbəkələrdə Azərbaycana qarşı "savaş" açmaq tapşırığını yerinə yetirməklə, erməni sevgilərini nümayiş etdirsələr də, heç nə dəyişməyəcək və dəyişmir, elə buna görə də, heç bir şey əldə edə bilmirlər. Çünki Avropa ölkələrinə sığınan və son vaxtlaradək trivial videoblogerliklə, bir də məzmunsuz və proqramsız "müxalifətçiliklə" məşğul olan bu parazit rüşeymli əxlaqsızlar xarici qüvvələr tərəfindən bir əlcək kimi istifadə olunub kənara atılır.

Bu yerdə "eşşək palçığa bir dəfə batanda, növbəti dəfə yolunu dəyişir" ataların bu ibrətamiz məsəli də yerində deyiləndir. Ancaq görünür, bu "siyasi mühacirlər"in gönü qalındır. Və bu gönü qalın Ə.Kərimli kimilər aldığı qrantlara görə bütün mənəviyyatlarını sataraq, anti-Azərbaycan kampaniyalar təşkil etməkdən usanmırlar. Elə son günlər Bakıda baş tutmuş UEFA Avroliqası finalı öz möhtəşəmliyi və bir sıra əhəmiyyətli ilkləri ilə Avropa məkanına nəyə qadir olduğunu sübuta yetirməsi əlilərin, yunusların, cəmillərin, isaların, orduxanlıların və... bu kimi parazitlərin canına elə vəlvələ saldı ki... Bu mötəbər idman oyunu sübut etdi ki, bu vaxta qədər Azərbaycanda keçirilən hər bir beynəlxalq idman hadisəsinin uğurla başa çatdırılması heç də təsadüf sayıla bilməz. Sübut olundu ki, bu vaxta qədər Azərbaycanda keçirilən hər bir beynəlxalq idman hadisəsinin uğurla başa çatdırılması heç də təsadüf sayıla bilməz. Eyni zamanda, bu hadisələrə qarşı, davamlı olaraq, aparılan qərəz və böhtan kampaniyalarının da fiaskoya uğraması reallığı təsadüf olmayıb. Çünki Azərbaycan dövləti hər bir beynəlxalq miqyaslı tədbirləri o qədər dəqiq və hesablanmış əsaslarla reallaşdırır ki, bəlli media qurumlarının, bəzi təşkilatların və onların havadarlarının deməyə sözləri qalmır, onlar, sadəcə, ağızlarını yumaraq, bir kənara çəkilib, məğlubiyyət acılarını yaşamalı olurlar.

Düşmən dəyirmanına su tökməyi özlərinə şərəfsizlik bilən dağıdıcı müxalifət satqınları - Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Rüstəm İbrahimbəyov, Gültəkin Hacıbəyli, Leyla Yunus, Xədicə İsmayıl ... kimi parazitlər 5-10 avro müqabilində beynəlxalq aləmdə Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışsalar da, heç nəyə nail ola bilmədilər və bundan sonra da bu "iddiaları" ürəklərində qalacaq..

### İlanın ağına da lənət, qarasına da

Ə.Kərimlinin yetişdirdiyi "siyasi mühacirlər" zəhərli ilandan da betərdirlər. Düz söz deyəndə, başlayırlar "iqtidar tərəfindən öyrədilmişlər" kimi böhtan fikirlər söyləməyə. Ay bədbəxtlər, bugünkü hakimiyyətin kimə qulluq etdiyi və gördüyü işlər, nəinki 10 milyonluq xalqın gözü önündədir, eyni zamanda, bütün dünya dövlətləri bu dövlətin ölkəsinə, xalqına etdiyi xidmətləri görür və qiymətləndirir. Sizin kimi parazitlər isə, ancaq bütün mənliyinizi erməninin 5 qəpiyinə belə satanlarsınız. Belə olmasaydı, canını Vətən, xalqı yolunda qurban verənləri Nərmin kimi mənəviyyatsız, Xədicə kimi əxlaqsız, Leyla Yunus kimi erməniyə yıxılan cinayətkar, Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli və ... digərləri kimi erməni qulbeçələri və cinayətkarları düşmənin xüsusi xidmət orqanlarının təlimatlarını icra etməzdilər. Bu gün hər şeyin sonu olduğunu görüb, qaşınmayan yerdən qan çıxarmağın da sonudur və bu günə kimi bayağı aksiyalar vasitəsi ilə heç bir şeyə nail olmamısınız. Artıq iftira və böhranlarınızı süni şəkildə zorla ictimai rəyə sırımağa çalışmaqla birə-on qat nifrət qazanırsınız. məkdədir. Və bu gün Ə.Kərimli özü "ağlında" və "tərbiyəsində" olanlara çağırışlar edərək, qanunsuz aksiyalar keçirmək tapşırığını verməklə, özünün "siyasi lider" yox, alçaq olduğunu, heç olmasa, bir dəfə anlamalıdır. Anlaya da bilməz. Çünki istər Avropa ölkələrinə sığınan söyüş və təhqiri, tərbiyəsiz ifadələri "siyasi fəaliyyət növü" sayanlar, istərsə də yerli satqın müxalifət ünsürlərinin xisləti, əməli, əxdaqı, mənəviyyatları ilə Ə.Kərimliyə bənzərlərdir. Çünki bu parazitlər idarə olunanlardır və idarə olunanlar isə, əslə, idarə edənin məramlarından və niyyətlərindən xəbərdar olmur. Bu kimi Vətən xainlərinin torpağına, elinə, obasına erməni-dən betər qənim kəsilən namərdlərin əsl qazancı isə xalqın nifrətidir. Bax, bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib, özgə yalı ilə yallanmaqla, heç nəyə nail ola bilməyəcəklər. Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

***Rəfiqə HÜSEYNOVA***

# Bakcell "1 iyun"u uşaqlarla birgə qeyd etdi

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Uşaqların Beynəlxalq Müdafiəsi gününü Azərbaycana Birgə Yardım (UAFA) təşkilatı və "SOS Uşaq Kəndləri Azərbaycan" Assosiasiyasının himayəsindəki xüsusi qayğıya ehtiyacı olan və valideyn himayəsindən məhrum olmuş uşaqlarla birgə keçirib.***





200 nəfərə yaxın uşağın iştirakı ilə "SOS Uşaq Kəndi"ndə keçirilən bayram tədbirində uşaqlar maraqlı əyləncə və müsabiqələrdə iştirak edib.

Bakcell artıq 10 ildir ki, ölkənin ən genişmiqyaslı Korporativ Sosial Məsuliyyət (KSM) proqramlardan biri olan "Bakcell Stars" proqramını həyata keçirir. Xüsusi qayğıya ehtiyacı olan və valideyn himayəsindən məhrum olmuş uşaqların inkişafına həsr olunmuş layihələr çərçivəsində indiyə kimi minlərlə uşaq və gənc Bakcell şirkətindən dəstək alıb.

"SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İB və "Azərbaycana Birgə Yardım" (UAFA) təşkilatı ilə birgə həyata keçirilən onlarla layihə vasitəsilə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquq və imkanların təmin edilməsi, onların asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə inteqrasiya olunmaları istiqamətində işlər görülüb.

**Bakcell haqqında**

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.

Bakcell şirkətinin 4G şəbəkəsi artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir.

7500-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test"). 2018-ci ildə şirkət "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən "Bakcell"ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib.

# Erməni həyasızlığından doğan ikili standart

*Azərbaycan Ordusunun mayoru Aqil Ömərovun qətlə yetirilməsi buna sübutdur*




***Bu gün ATƏT-in Minsk Qrupu həmsədrlərinin ikili standart fəaliyyəti yenilik deyil. Düz 27 ildir ki, eyni yol, eyni ikibaşlı oyun... Bu, o ATƏT-in Minsk Qrupudur ki, bu günə kimi, faktiki olaraq Dağlıq Qarabağ münaqişəsinin həllində real irəliləyişə nail ola bilmir. ATƏT-in Minsk Qrupu həmsədrlərinin son aylardakı fəaliyyətinə ümumi nəzər salsaq, onlardan Azərbaycana hər səfəri sözdə "siyasət", əməldə isə "turizm" səfəridir.***

İki gün əvvəl ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı növbəti regiona səfəri zamanı Azərbaycan Ordusunun mayoru Aqil Ömərov erməni snayperi tərəfindən vurularaq, şəhid olub. Bu o vaxta təsadüf edib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri Bakıda idi. Bir mayorun, bir komandirin yetişdirilməsi üçün Azərbaycan dövləti nə qədər xərc çəkir və bizim atəşkəs rejimi elan etdiyimiz bir dövrdə snayperlərin istifadəsinin qadağan olunmasına baxmayaraq, bu hadisə baş verib. Lakin ikibaşlı "siyasət" aparan ATƏT-in Minsk Qrupunun həmsəçlərləri bir reaksiya da verməyib. Bu təəccüb də doğurmur. Çünki "fəaliyyət" göstərdiyi 27 illik dövrdə Minsk Qrupu münaqişənin həll edilməsindən daha çox, ya onun uzadılması yönündə, ya da bu və digər üsullarla işğala məruz qalan Azərbaycana qarşı bəyanatlar səsləndirməklə məşğul olub və beləliklə, əslində, işğalçı Ermənistana himayədarlıq etdiyini gizlətməyib. Sözügedən bəyanat, haqlı olaraq, Azərbaycan ictimaiyyətində və ölkəmizin rəsmi dövlət qurumlarında narazılıqla qarşılanıb.

ATƏT-in Minsk Qrupunun münaqişə ilə bağlı bu cür ikili və bəzən də, qərəzli münasibət sərgiləməsi ilk dəfə deyil. Həmsədr statusunda olan hər üç dövlət bu və digər formada Ermənistanı ya açıq surətdə müdafiə edir, ya da ən azı, təcavüzkar ölkənin cinayətlərinə göz yumur.

Hazırda cəmiyyətdə ATƏT-in Minsk Qrupunun gərəksiz və bəzi hallarda da əngəlləyici bir struktur olması düşüncələrə hakim kəsilib. İndi belə bir sual aktualdır: münaqişənin həllində heç bir təsir mexanizmi olmayan, bəzən isə təcavüzkarın yanında olduğunu gizlətməyən Minsk Qrupu kimə və nəyə lazımdır?..

## Elxan Şahinoğlu: "Bundan sonra Minsk Qrupunun münaqişənin həlli ilə bağlı fəaliyyət göstərməsi də artıq absurddur"

"Deyəsən, Dağlıq Qarabağ probleminin həlli istiqamətində yeni "həll variantı" tapılıb. Özü də bu "həll variantı"nı 20 ildən artıqdır ki, münaqişənin həlli istiqamətində heç bir irəliləyişə nail ola bilməyən, yalnız regiona turistik səfərlər edərək, boş-boş bəyanatlar səsləndirməklə məşğul olan ATƏT-in Minsk Qrupunun həmsədrləri və onları təmsil edən üç həmsədr ölkə tapıb. Bu "həll variantı" isə, Dağlıq Qarabağın separatçı rejiminin tərəf kimi qəbul edilməsidir. Hər halda, separatçı rejimin rəhbəri Bako Saakyanın üç həmsədr ölkəyə baş tutan səfərləri, eləcə də, vasitəçilərin regiona səfərləri zamanı onların Azərbaycanın icazəsi olmadan işğal altında olan ərazilərə səfər edərək, orada separatçıların lideri ilə görüşmələri belə deməyə əsas verir." Politoloq Elxan Şahinoğlu hesab edir ki, bu səfərlərin arxasında Azərbaycan üçün başqa təhlükəli tendensiya gizlənir: "Həmsədr dövlətlər separatçıların liderini Paris, Vaşinqton və Moskvaya dəvət etməklə, bizə onu tərəf kimi sırımağa çalışırlar. Beləcə həmsədrlər Ermənistan hakimiyyətinin illərdir bizə qəbul etdirməyə çalışdıqları mexanizmi işə salmaq istəyirlər. Elə Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanın da istəyi budur".

## Ermənistan isə hələ də Azərbaycan Ordusunun gücündən danışır

Politoloq Qabil Hüseynli bildirib ki, bu 27 il ərzində ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona səfərindən müsbət heç nə gözlənilməyib və bundan sonra da gözləmirəm: "Çünki həmsədr dövlətlərin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ikili standart mövqeyi hər kəsə məlumdur. Minsk Qrupu həmsədrləri 27 ildən çoxdur ki, münaqişənin həlli ilə bağlı regiona gəlib, boş bəyanatlar verməklə məşğuldurlar. Həmsədrlərin münaqişənin həlli ilə bağlı əməldə heç bir addım atmayıblar. Avropa qurumlarının, həmsədr ölkələrinin ermənilərin işğalına və separatçılara qarşı mövqeləri bu gün onların öz başlarında çatlayır. Artıq onlar da terrorun və separatizmin qurbanına çevriliblər. Bu da ikili standartların nəticələridir. Bu baxımdan, hesab edirəm ki, həmsədrlərin əvvəlki səfərləri kimi, budəfəki səfəri də digərlərindən fərqlənməyəcək. Fərqlənsəydi, Azərbaycan Ordusunun mayoru Aqil Ömərov erməni snayperi ilə vurularaq, şəhid olmasına münasibət bildirilərdilər. Belə ATƏT-in Minsk Qrupunun erməni həyasızlığından doğan ikili standartı göz qabağındadır və onların fəaliyyəti də mənasızdır".

**RƏFİQƏ HÜSEYNOVA**

# Yerevan polisi nümayişçiləri "Soros" fondunun ofisinə tərəf buraxmayıb



Yerevan polisi Ermənistanda açıq cəmiyyət fondunun ("Soros" fondu) fəaliyyətinin dayandırılmasını tələb edən nümayişçiləri təşkilatın ofisinə tərəf buraxmayıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, "Veto" ictimai-siyasi hərəkatının təşkil etdiyi aksiyanın iştirakçıları polis səddini yarmağa cəhd etsələr də, buna nail ola bilməyiblər. Belçikada "sarı jiletlər" aksiyasının aktiv iştirakçılarından biri Krist Berteryan da Yerevandakı etirazlara qoşulub. Aksiya iştirakçıları "Soros" fondunu Ermənistanın daxili işlərinə qarışmaqda ittiham edirlər.

"Mən polislərdən əvvəllər məhkəmə və hökumət binalarının, həmçinin Milli Məclisin qarşısında nümayişlər keçirərək onların işini iflic etməyə, konstitusiya quruluşunun devrilməsi yolu ilə hakimiyyəti ələ keçirməyə imkan verdikləri halda, "Soros" fondunun ofisi qarşısında dinc aksiya keçirməyimizə nə üçün icazə vermədikləri ilə maraqlandım. Mənə heç kim cavab vermədi", - aksiyanın təşkilatçısı Narek Malyan jurnalistlərə belə deyib.

# Bəxtiyar Abbasov: "Əli Kərimli utanmadan öz məkrli oyunlarını davam etdirir"



Dağıdıcı müxalifət düşərgəsində təmsil olunan partiyaların fəaliyyətləri milli və dövlətçilik maraqlarına zərbə vurmağa və xarici sifarişlər əsasında ölkədə təxribatlar, pozuculuq aktaları törətməyə hesablanıb. Amma reallıq budur ki, onlar zəif və tör-töküntüdən ibarət olduqlarından heç bir hal da uğur əldə edə bilmirlər. Əminliklə deyə bilərəm ki, heç zman da istəklərinə nail ola bilməyəcəklər". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov deyib. Onun sözlərinə görə, dağıdıcı ünsürlərin önündə gedənlərdən olan AXCP sədri Əli Kərimli dəfələrlə ifşa olunmasına və xarici anti-Azərbaycan qüvvələrə satılan xəyanətkar birisinin olması sübuta yetirilməsinə baxmayaraq bu dırnaqarası siyasətçi öz məkrli əməllərini davam etdirməkdədir: "O zamanın da liderinə xəyanət etmiş, əqidə yoldaşlarını qəpik-quruşa satmış şəxsdir. Ə.Kərimli utanmadan öz məkrli oyunlarını davam etdirir. Hətta bir neçə illər öncə hər hansı bir məsələ üzərində oynadığı oyunbazlığını bir müddət sonra yenidən təkrarlayır. Bununla da Ə. Kərimli hələdə öz köhnə küçə təfəkküründən əl çəmədiyini, bütövlükdə Azərbaycan dövlətinin yürütdüyü siyasətə qarşı ən murdar iftiralarını atmaqda davam etdiyini nümayiş etdirir". B.Abbasovun məntiqli izahına görə, tamamilə ictimai rəyin nifrət obyektinə çevrilən Ə.Kərimli hay-küylü şouları ilə özünü "birləşmiş müxalifətin lideri" kimi ictimai rəyə zorla sırımağa çalışır: "Ə.Kərimli elə düşünür ki, o həqiqətən də müxalif düşərgənin aparıcı siması, liderdir. Amma reallıqda o düşərgə də, yetimişinci dərəcəli partiaya yetkilisi səviyyəsində, belə deyil. Rəhbərlik etdiyi AXCP-də və ya təmsil olunduğu "Milli Şura" da belə onu qəbul etmirlər. Bu isə bir daha onu təsdiq edir ki, Ə.Kərimli və başına topladığı bitmiş siyasətçilər tükənmiş və tarixin arxivinə atılmaq mərhələsin də olan simalardır. Bu faktdı,bu faktı təkzib və inkar etmək qeyri-mümkündür".

# Ermənistanda etiraz aksiyası: polislə qarşıdurma olub



VETO ictimai-siyasi təşkilatı bu gün İrəvanda "Ermənistan Açıq Cəmiyyət Fondu"nun (Soros Fondu) fəaliyyətinə qarşı etiraz aksiyası keçirir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Sorosun ofisinin qarşısında çoxsaylı polis qüvvələri yerləşdirilib və bu qüvvələr aksiya iştirakçılarının ofisin binasına daxil olmasına imkan vermirlər.

Məlumatda deyilir ki, VETO ictimai-siyasi təşkilatının təsisçisi Narek Malyan deyir ki, heç bir şey onlara ofis qarşısında mitinq keçirilməsinə mane ola bilməz. Malyan polisin müqavimətinə baxmayaraq ofisə daxil olmağa güc də göstərib və nəticədə polislə nümayişçilər arasında qarşıdurma yaranıb. İctimai-siyasi təşkilatın təmsilçisi Ermənistanın bütün siyasi qüvvələrini səfərbər olmağa və Soros fondunun qarşısında toplaşmağa çağırıb.

***İnam Hacıyev***

# "Bakı finalında yüksək səviyyədə təşkilatçılıq özünü göstərdi"

***"Bakıda keçirilən UEFA Avropa Liqasının "Arsenal" - "Çelsi" oyunundan bir neçə gün sonra Madriddə Çempionlar Liqasının final oyunu keçirildi.***

Artıq tarix olan hər iki hadisəni təşkilatçılıq baxımından bu gün müqayisə edə bilərik. Nəzərə alsaq ki, çox yaxın keçmişdir və hər iki oyun detalları ilə yaddaşlardadır, ona görə də fikirləşirəm ki, müqayisə obyektiv olacaq". Bunu SİA-ya açıqlamasında Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov deyib.

Sədrin sözlərinə görə, İspaniya Krallığında idman yarışlarını, xüsusilə futbol çempionatlarını təşkil etmək üçün artıq formalaşmış, oturuşmuş təcrübə mövcuddur: "Bu baxımdan da orada keçirilən yarışların təşkili ilə bağlı kimsə mənfi fikirlər səsləndirmir. Həm də nəzərə alsaq ki, İspaniya özü də hər baxımdan nəhəng futbol infrastrukturuna malikdir, dünyanın ən yaxşı komandalarından biri bu ölkənin milli komandasıdır, həmçinin, İspaniya milli çempionatı haqlı olaraq ən baxımlı çempionatlardan sayılır. İspaniyanın milli klublarının səsi ən mötəbər kubokların qalibi kimi səslənir. Ona görə də bu ölkədə təşkil olunan istənilən yarışın təşkilində hansısa problemləri axtarmaq çətindir. Bakıda keçirilən final qarşılaşması ilə bağlı isə müxtəlif qarayaxmalar oldu, ölkəmizə təzyiqlər edilməyə başladı, ayrı-ayrı qüvvələr Bakıda bu cür səviyyəli finalın baş tutmasında problemlər olacağını səsləndirdilər. Amma final yüksək səviyyədə baş tutdu və yuxarıda haqqında bəhs etdiyimiz Madriddəki finaldan daha yaxşı səviyyədə təşkilatçılıq özünü göstərdi, tamaşaçıların təhlükəsizliyindən tutmuş stadionun keyfiyyətinə qədər hər şey daha üstün idi və haqqlı olaraq dünya mətbuatı oyundan sonra oyunla bağlı təşkilatçılıq məqamlarına diqqəti çəkdi, Bakının ən mötəbər oyunlara ev sahibliyi etməsinə haqqı çatdığından yazdı.



Əlbətdə bütün bunlar Azərbaycanın həm təhlükəsiz ölkə olmasını, həm böyük idman infrastrukturuna malik olduğunu, həm Azərbaycanın iqtisadi qüdrətinin nümayişi və həm insanlarımızın nə qədər sivil xalq olmasının göstəriciləridir. Artıq ölkəmizdə mötəbər oyunların keçirilməsində qısa müddətdə əldə olunan təcrübə illərin ənnənəvi oyunları təşkil edən ölkələri ilə müqayisədə nəinki geri qalmır, əksinə onları üstələyir. Bütün bunlar isə əlbətdə qürurvericidir".

***Ceyhun Rasimoğlu***

TƏRS BAXIŞ

# AXCP sədri hansı faktı gizlədə bilmir?

*Ötən yaxın müddətdə 130 nəfər cəbhəçi*
*Əli Kərimli siyasətini rədd edib!*

***AXCP sədri Əli Kərimli, partiyası daxilindəki istefaları hər vəchlə gizlətməyə çalışsa da, o, bu sirri saxlamaq gücündə deyil. Daha doğrusu, "axecepeçilər"in sədri gah bu, gah da digər saxta motivləri ilə partiyadaxili qalmaqalları ictmai rəydən yayındırmaq üçün müxtəlif süni ajiotajlar yaratmağa çalışır. Ancaq faktdan yayınmaq mümkün deyil. Misal üçün, Ə.Kərimli ötən müddətdə, 130 nəfərə qədər AXCP üzvünün istefasını gizlədə bilməyib. Hətta belə demək mümkündürsə, Kərimli və müavinləri sosial şəbəkələrdə guya partiyasının sıralarının artdığını iddia edərək, əslində, özlərini ifşa ediblər.***

### Əbəs deyil ki, AXCP-də istefalar dalğası başlayar-başlamaz, Kərimli və funksionerləri dərhal "partiyamızın sıraları artır" tipli statuslarını artırırlar

Məlum olub ki, o, baş vermiş istefa məsələsini arxa planda saxlamaq istəyib. Bunu istefa vermiş sabiq cəbhəçilər sosial şəbəkələrdə yazıblar. Onlar qeyd ediblər ki, bir ayda 100-dən artıq AXCP üzvü partiyadan çıxıbsa, bunu partiya sıralarının artması kimi qələmə vermək, sadəcə, ağılsızlıqdır. Əbəs deyil ki, AXCP-də istefalar dalğası başlayar-başlamaz, Kərimli və funksionerləri dərhal "partiyamızın sıraları artır" tipli statuslarını artırırlar.



O da, sirr deyil ki, AXCP-dən qopmaların əsas səbəbləri Ə.Kərimlinin sıravi üzvlərlə yanaşı, fəallara qarşı etinasız yanaşması, onların təklif və tələblərini qulaqardına vurması və s. bu kimi məsələlərdir. Belə olanda, AXCP sıralarında qruplaşmalar yaranır və onlar etirazçı, yaxud qiyamçı kimi tanınmağa başlayırlar.

### Narazı olan cəbhəçilər Kərimlini sədrlik postundan devirə bilmək imkanını əldə edəcəklər

Nəticədə, Ə.Kərimli ya onların özlərinin istefa ərizələrini imzalayır, ya da özü qiyamçıları partiyadan qovaraq, ona mane olan baryerləri aşırmağa cəhdlər göstərir. Ancaq belə bir halın partiyada uzun müddət davam edəcəyini düşünmək olmaz. Gec, ya da tez, onsuz da, ondan narazı olan cəbhəçilər Kərimlini sədrlik postundan devirmək imkanını əldə edəcəklər. Çünki həmin qüvvələr AXCP liderinin uğur qazanacağına olan inamlarını itiriblər və açıq şəkildə bəyan ediblər ki, Ə.Kərimli, bilavasitə Elçibəyin Xalq Cəbhəsi ideologiyasına, illərdir ki, xəyanət edir. Artıq bu haqda da, kifayət qədər məlumatlar sızmaqdadır. Kərimlinin Elçibəyin portreti altında oturub, vaxtilə "liderim" dediyi şəxsə qarşı ifrat xəyanətləri bu gün də AXCP-çilər arasında danışılmaqdadır.

### Əli Kərimli trollarının muzdlarını mənimsəyir və kəsir

Daha bir amil isə, Ə.Kərimlinin əldə elədiyi maddi gəlirləri partiyadaşları ilə bölüşməməsi, vəsaitləri yalnız özünə və ailəsinə xərcləməsidir. Hətta AXCP sədrinin sosial şəbəkədəki trollarının son vaxtlar passivləşməsi də, belə deməyə zəmin yaradır ki, artıq onlar üçün ayrılmış məbləğlər azalıb, onların vaxtı-vaxtında həftəlik muzdları ödənilmir. Habelə, Kərimli çalışır ki, törətdiyi hər bir qanunsuz əməllərinə görə həbs olunanların sayı çoxalsın və o da, bu məsələdən öz siyasi və şəxsi maraqları üçün istifadə edib, daha çox gəlirlər əldə etsin. Hansı ki, biz dəfələrlə, onu da qeyd etmişik ki, AXCP sədri partiyasının fəalları həbs olunarkən, yalnız ilk günlər onların həbsləri ətrafında manupulyasiyalar əldə edir, sonradan isə, həbsə düşənlər, sadəcə, unudulurlar. Bunu ona xatırladanlar isə, dərhal "satqın" və "xəyanətkar" adlandırılaraq, AXCP sıralarından çıxarılır. Beləliklə, cidanı çuvalda gizlədə blməyən Ə.Kərimli son anda daxildə baş verən qarşıdurma və savaşları ictimai rəydən gizli saxlaya bilmir. Necə deyərlər, fakt hər zaman fakt olaraq qalır və istefa faktları da bu sırada öz yerini tutub.

**Rövşən RƏSULOV**

# "Nar" Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə autizmli uşaqlara dəstək olub




***"Nar" 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə autizm sindromlu uşaqlar üçün ölkəmizdə ilk dəfə keçirilən Autizm Mədəniyyət Festivalına dəstək olub. Heydər Əliyev Mərkəzində keçirilmiş festivalda autizim sindromlu uşaqlar incəsənətin müxtəlif sahələrində öz istedadlarını nümayiş etdiriblər. Rəqslərlə, solo, xor şəklində ifalar, tanınmış sənətçilərlə birgə çıxışlar ilə zəngin olan festivalda autizm sindromlu uşaqlar podiumda bir model kimi də bacarıqlarını göstəriblər. Festivalın təşkilatçıları "Birgə və Sağlam" İctimai Birliyi, "Uşaqların Xoşbəxt Gələcəyi" İctimai Birliyi və "Ümid var" xeyriyyə könüllüləri olub. Layihə Heydər Əliyev Fondu tərəfindən dəstəklənib.***

Autizm sindromlu uşaqlar podiumda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın əsəri köçürülmüş parçadan modelyer Afaq İsmayılovanın hazırladığı kolleksiyanı təqdim ediblər. Festivalda Türkiyədən gələn və autizm sindromlu uşaqlardan ibarət olan İzmir Autizm Orkestri - İZOT xor qrupu maraqlı proqramla çıxış edib. Qonaqların "Autizm nədir?" sualına cavab tapması üçün qısametrajlı animasiya filmi də nümayiş olunub. Tədbir autizm sindromlu uşaqların öz istedad və bacarıqlarını nümayiş etdirmələrinə şərait yaratmaq, onların sosiallaşmasına, cəmiyyətə inteqrasiya olunmalarına dəstək olmaq məqsədi daşıyır. Qeyd edək ki, "Nar" xüsusi qayğıya ehtiyacı olan insanları daim diqqətdə saxlayır və onların cəmiyyətə inteqrasiya olunması istiqamətində müxtəlif addımlar atır. Mobil operator "autizm spektr pozuntuları" diaqnozlu uşaqlarla bağlı bir neçə layihə icra edib.






Təhmasib Novruzov

# ŞOK! İlyas İsmayılov Qarabağ problemini həll edəcək...

***Sosial şəbəkədə bir qəribə məlumatla qarşılaşdım. Azərbaycan SSR-in Baş Prokuroru, 20 Yanvar faciəsindən sonra SSRİ-nin Baş Nəqliyyat Prokuroru işləmiş, indi özünü Müstəqil Azərbaycanın "baş demokratı" kimi tanıtmağa çalışan "Ədalət" partiyasının sədri İlyas İsmayılov bəyanat verib ki, iqtidar ya Qarabağı azad etməlidi, ya da... Ardını yazmıram. Çünki yazacağım o qədər söz var ki, onun dediklərinə əlavə yer ayırmağa vaxtım və həvəsim çatmır.***

1988-ci ilin əvvəlindən, Qarabağda hadisələrin baş qaldırdığı ilk dövrlərdə baş verənləri xatırlayanlar mənim dediklərimi də yaddaşlarında canlandırsınlar, nəyisə yanlış desəm, boynum qıldan da nazikdir. 1988-ci ilin fevral ayında hadisələr başlayandan az sonra Ağdamdan Xankəndiyə məlum yürüş təşkil edildi. Qarabağ hadisələrinin ilk iki şəhidini həmin yürüşdə qurban verdi xalqımız. 17 nəfər də yaralımız var idi. Hadisədən iki il sonra Ağdam rayon prokuroru, İ.İsmayılovun yaxın qohumu Zakir Məmmədov hadisə ilə bağlı cinayət işi qaldırdı. Fotolar əldə edib yürüş iştrakçılarını çağıraraq, pullarını alıb buraxırdılar. Rayonun fəal gəncləri müdaxilə edəndən sonra bu iyrənclik dayandırıldı və rayon prokuroru Zakir Məmmədov ona bu cinayət işini qaldırmağı şəxsən Baş Prokuror İ.İsmayılovun tapşırdığını etiraf etdi. O, etiraf etməsə belə, o dövrdə yaşamış hər kəs bilir ki, Baş Prokurorun göstərişi olmadan, heç bir rayon prokuroru bu addımı ata bilməzdi. Beləcə, xalqın gücü ilə, məhz xalqa yönəldilmiş bu iyrənc əməlin qarşısı alınsa da, iki nəfər rayon fəalını, məhz İ.İsmayılovun sanksiyası ilə həbs edib, cəza kəsdilər. Açıq da dedilərki, bunu eləməsək, Moskva bizi məhv (?) edər. Ardınca məhz İ.İsmayılovun göstərişi ilə Qarabağda, o cümlədən, Ağdamda bütün azərbaycanlılardan quş tüfənglərinə qədər bütün silahlar yığıldı. Həmin ərəfədə Sumqayıt hadisəsi baş verdi. Həmin hadisələrin ermənilər tərəfindən törədildiyini bildiyi halda, Əhməd Əhmədov adlı qeyrətli Azərbaycan oğluna cinayət işi qaldırıldı və Ə.Əhmədov Moskvaya aparılaraq güllələndi, Sumqayıt hadisələrinin təşkilatçısı olmuş Paşa ləqəbli erməni isə azad edildi. Bu və sadalamadığımız digər faktların nəticəsi idi ki, 1990-cı il 20 Yanvar hadisələrindən sonra İ.İsmayılov Moskvaya aparıldı və SSRİ-nin Baş Nəqliyyat Prokuroru təyin edildi.

Sadaladıqlarım bu şəxslə bağlı mənim bildiyim faktların az bir hissəsidir.Əcəba, xalqın təbirincə desək, yağışlar yağdı, çatlar örtüldümü? Dünən Moskvanın sifarişlərini yerinə yetirib, millətinə hər cür pislikləri can-başla yerinə yetirən birisinin, bu gün çıxıb iqtidara "ultimatum" verib, "Qarabağ məsələsini həll etməlidir, yoxsa nəsə olacaq" deməsi, həm gülüncdür, həm də nifrət oyadacaq məqamdır. Adama deməzlərmi ki, ay belə-belə olmuş, qeyrətliyinsə, vaxtında Moskvanın xoşuna gəlmək xatirinə bu milləti Qarabağda əliyalın buraxmayaydın də... Təpədən-dırnağadək silahlanmış ermənilərin qabağında camaatı silahsız qoyub, düşmən qarşısında acizləşdirən sən olmusan axı, qeyrətin Moskva səni qovub millətin yanına qaytarandan sonra cuşa gəldi?

Onsuz da, cəmiyyətin nifrətini daşıyan bir kəsin bu və buna bənzər bəyanatlarının qəbul olunmadığını, hətta ikrah doğurduğunu yaxşı bilirəm. Ona görə də, heç bir kəsərə malik olmayan belə bəyanatlara bu dəfə də xalqın reaksiyanın necə olacağını yaxşı bilirəm. Məni, sadəcə, bu maraqlandırır ki, bu qədər millətinə zərbələr vuran bir adam özündə necə üz tapır ki, çıxıb bu addımı ata bilir? Çox düşünüb, gəldiyim nəticəni də oxucularla bölüşmək istərdim. Bir ildən çox aparılan hazırlıqdan sonra ölkə başçısı sosial paketlər toplusunu imzaladı, bizim bəzi müxaliflərimiz döşlərinə döydü ki, gördünüz, iqtidar bizdən qorxdu (???), ona görə bu addımı atdı. İndi deyirəm, yəqin İ.İsmayılov görür ki, Qarabağ məsələsinin həlli yetişir, Prezident qəti addımlara hazırlaşır, ona görə belə çıxışlar edir ki, sonra desin mən "ultimatum" verdim, ona görə Qarabağ məsələsi həll edldi! Nə deyim, vallah, İlyas İsmayılov kimisinin belə addımına başqa bir qiymət verə bilmirəm.

# Azərbaycan Respublikası Konstitusiyasında fiziki və psixi sağlamlıq hüququnun qorunması

***Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəsin sağlamlığını qoruması və tibbi yardım hüququ var. Azərbaycan Respublikası vətəndaşlarının sağlamlığının qorunması haqqında qanunvericiliyə uyğun olaraq, vətəndaşların sağlamlığının qorunması - bu, hər bir insanın fiziki və psixi sağlamlığının saxlanmasına və möhkəmləndirilməsinə, onun uzun illər boyu fəal həyat tərzinin dəstəklənməsinə yönəlmiş siyasi, mədəni, elmi, tibbi, sanitargigiyenik və epidemiya əleyhinə tədbirlərin məcmusu, ona sağlamlığını itirdiyi hallarda tibbi yardım göstərmək deməkdir.***

Azərbaycan Respublikasının vətəndaşları sağlamlığın qorunması üzrə ayrılmaz hüquqa malikdirlər. Bu hüquq təbii mühitin mühafizəsi, vətəndaşlara əmək, məişət, istirahət, tərbiyə və təhsil üçün əlverişli şəraitin yaradılması, keyfiyyətli qida məhsullarının istehsalı və satışı, eləcə də, əhaliyə əlçatar tibbi-sosial yardım göstərilməsi ilə təmin edilir.

Bu normaların deklarativliyi təbiətin qlobal surətdə dağıdılmasın da, xalqın fiziki və psixi rifahının təhdidedici tərzdə pisləşməsində özünü büruzə verir. Psixi sağlamlıq və xidmətlər göstərilməsi sahəsində siyasət məsələsinə gəlincə, burada vəziyyət daha da pisdir. Son onillik ərzində, ölkədə hər şeydən öncə, qeyri-psixotik psixi pozğunluqların, şəxsiyyətin pozğunluğunun, vətəndaşlara psixiatriya yardımı göstərilməsi üçün müraciətlərin sayının hədsiz artımı qeyd edilmişdir. Bu, onunla bağlıdır ki, əhalinin psixi sağlamlığının qorunması üzrə dövlət siyasəti əhalinin psixi sağlamlığının saxlanmasına və möhkəmləndirilməsinə deyil, sağlamlığın itirilməsi zamanı tibbi yardım göstərilməsinə yönəldilmişdir. O da, üstəlik, ən aşağı səviyyədə. A.P.Zilberin fikrincə, hesablamalara görə, psixi və davranış pozğunluqları qlobal xəstəliklər yükünün 12 %-ni təşkil edir. Əksər ölkələrdə isə, psixi xəstəliklərin müalicə büdcəsi səhiyyə xərclərinin ümumi həcminin 1%-dən də azını təşkil edir. Ona görə də, iztirablar davam edir, çətinliklər isə artır. Bu, təbiidir. Səbəbi aradan qaldırmadan, nəticənin öhdəsindən gəlmək hələ heç kimə müyəssər olmayıb.

Gördüyümüz kimi, qanunvericilik normalarının məzmunu ilə mövcud reallıqlar arasında heç bir qarşılıqlı əlaqə yoxdur. Bu isə, onunla bağlıdır ki, aparılmış və aparılan siyasət dövlətin sağlam adamlarının sağlamlığının qayğısına qalmaqla bağlı konstitusiya öhdəlikləri istiqamətində deyil, artıq xəstələnənlərin müalicəsi istiqamətindədir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi sağlamlığı - vətəndaşlara doğulandan bəri məxsus olan və başqa yolla ötürülməyən qeyri-maddi rifah adlandırır.

1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt"da (12-ci maddə 1-ci bənd hər bir insanın ən yüksək səviyyədə əldə oluna bilən fiziki və psixi sağlımlığı hüququ bəyan edilir. Bununla da, insanın sağlamlıq hüququ və hətta bu rifahın müvafiq səviyyəsi təsbit edilmişdir. İnsan - bu rifahın yeganə daşıyıcısıdır. Bunu qadağan etmək, onun daşıyıcısını bu hüquqdan məhrum etmək və ya bu hüququnu məhdudlaşdırmaq olmaz. Psixi cəhətdən sağlam insanlar da, xəstə insanlar da bu hüquqa malikdirlər. Bu mənada, psixi sağlamlıq da daxil olmaqla, sağlamlıq hüququ yaşamaq hüququ ilə həmahəngdir. Bacarığın məhdudlaşdırılması və ya itirilməsi bu rifahın özü kimi psixi sağlamlıq hüququndan məhrum etmir və bu hüququ azaltmır.

Psixi sağlamlıq hüququ insanın təbii hüququdur. Psixi sağlamlıq insanın ən ali, birinci dərəcəli rifahıdır ki, bunsuz əksər rifah və dəyərlərin əhəmiyyəti bu və ya digər dərəcədə itirilir.

Məhz buna görə də, insanın təbii hüquqlarının təmin edilməsi məqsədilə dövlətin, hər bir vətəndaşın fiziki və psixi sağlamlığına qayğı göstərmək, psixi sağlamlığın saxlanması və möhkəmləndirilməsi üzrə məqsədyönlü siyasət aparmaq və gələcəkdə hüquqların pozulması təhlükəsi yaradan hərəkətlərin qarşısını almaq kimi konstitusiyada təsbit olunmuş öhdəlikləri zəruridir.

Psixiatriyada insan hüquqları elə fundamental kateqoriyadır ki, bunlarsız psixiatriya elmi fənn kimi mövcud ola bilməzdi. Yalnız psixi xəstələrin zəncirlərdən azad edilməsi və ağıldankəmlər üçün müəssisənin direktoru vəzifəsindən polis rütbəsinin götürülməsi yolu ilə onu müalicə müəssisəsinə çevirmək olar.

Azərbaycan Respublikasının qanunvericilik təcrübəsinə münasibətdə, qeyd etmək lazımdır ki, Azərbaycan psixiatriyası üçün əsas və keyfiyyətcə yeni məsələ yeni qanunun iki yeniliyi olmuşdur. Birincisi, bütün qeyri-könüllü tədbirlər zamanı - müayinə, xəstəxanada yerləşdirmə, müalicə - məhkəmə proseduru mütləqdir. Bu, psixiatriya müdaxiləsi halında şəxsiyyətin azadlıq və şəxsi toxunulmazlıq hüququnun əməli təsdiqi istiqamətində böyük və prinsipial həlledici addımdır.

K.Yaspers tərəfindən tərəfdaşlıq prinsipinin dərin fəlsəfi əsaslandırılması həkim-psixiatrın öz xəstələri ilə, məhz rabitə qurması nümunəsində verilmişdir. K.Yaspers həm filosofluğun üfüqlərini, həm də onun öz formasını geniş açaraq, bu rabitədə bütöv bir mikrokosmos yaratmışdır. Məlumatlandırılmış razılıq doktrinası xəstənin müəyyən terapevtik taktikanı, bir neçə alternativ variant arasından müstəqil seçməklə, müalicə işində düşünülmüş əməkdaşlığa cəlb edilməsini nəzərdə tutur.

A.Mustafayeva yazır: "Azərbaycan Respublikası qanununda psixiatriya üçün ikinci prinsipial yeni demokratik üstünlük, beynəlxalq-hüquqi müddəalara uyğun olaraq, psixi pozğunluğu olan şəxslərin və bütün digər vətəndaşların hüquq və azadlıqlarının tam bərabərliyinin bəyan olunması idi. Belə ki, burada dəqiq göstərilirdi ki, "psixi pozğunluqlardan əziyyət çəkən şəxslərin yalnız psixiatriya diaqnozu, dispanser müşahidəsi altında olması faktı əsasında, sosail təminat və ya xüsusi təlim üçün psixiatriya stasionarında, yaxud psixonevroloji müəssisədə hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yol verilmir".

Bu cür pozuntulara yol verən vəzifəli şəxslər Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq, məsuliyyət daşıyırlar. Buna müvafiq olaraq, əgər psixi sağlamlığın vəziyyəti haqqında məlumat, yaxud psixiatrlar tərəfindən müraciət, müayinə və müalicənin tələb edilməsi, AR qanunları ilə müəyyən olunmayıbsa, qanun bunları qadağan edir. Bütün bu məlumatlar qanunla qorunan həkim sirrinin predmetini təşkil edir. Qanunun göstərilən müddəası təhsil almaq istəyərkən, işə düzələndə, xaricə gedərkən, sürücülük vəsiqəsi alanda, mənzil sahəsini dəyişərkən və s. geniş yayılmış və özünə möhkəm yer etmiş "psixonevroloji dispanserdə" arayış təqdim etmək praktikasına son qoymaq məqsədi daşıyırdı." Onilliklər ərzində, milyonlarla insanın həyatını müşayiət etmiş bu adət halını alan tələblər, 1993-cü il yanvarın 1-dən qanunsuz sayıldı. Lakin onların inersiyası hələ də geniş miqyasda qalmaqdadır. Bu cür arayışları almaq proseduru isə, qətiyyətlə dəyişilmişdir. Nazirlik və idarələrə psixiatriya yardımı haqqında hüquqi aktlar (təkcə normativ deyil) qəbul etmək hüququ verilib. Psixiatriya müəssisələrinin isə, xəstələrin hüquq və qanuni mənafelərini təmsil etmək hüququ ləğv edilib.

Beləliklə, biz bütün inkişaf xətti boyunca gərgin ambivalent şəraitlə rastlaşırıq. Qüvvələrin ilkin qeyri-bərabərliyini nəzərə almaq lazımdır. Demokratik cəhdlərə qarşı, hətta öz ruhuna uyğun müxalifət də yetişdirən 400 illik ənənələr dayanır.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən sağlamlığın "tam fiziki, ruhi və sosial rifah" kimi tərif edilməsi, hərfi mənada başa düşülə bilməz. O, yoxsul ölkələrə uyğun gəlmir, daim mühacirət təcrübəsi ilə təsdiqlənən "insanlar üçün mütləq deyil, onların tələbatlarının təminatında nisbi böyüklük daha əhəmiyyətlidir" kimi fakta məhəl qoymur. Ona görə də, "tam" deyil, "nisbi" rifah haqqında danışmaq daha düzgün olardı. Nəhayət, ÜST-in tərifi heç də kor-koranə yaranmayan təbii söz işlətmə qaydasından fərqlənir. Adi dil "sağlamlıq" sözü altında fiziki, somatik, başqa sözlə, bədən xəstəliklərinin antonimini başa düşür. Sağlamlıq anlayışını sosial rifaha şamil etmək metafor ardınca gedərək, həddən artıq ümumi (metanəzəri) mənadan istifadə etmək deməkdir. Bu isə, həm bioloji olanın sosiallaşmasını, həm də sosial olanın biolojiləşməsini asanlaşdırır. Bu cür ümumi birölçülü yanaşma keyfiyyət fərqlərini relyativləşdirir və funksional olanları mütləqləşdirir. Hər hansı fəaliyyət sahəsinin predmetinin xüsusiyyətləri, o cümlədən, təbabətə olan mənsubluq itirilir. Sağlamlığın ÜST tərəfindən verilmiş 1946-cı il tarixli tərifi elə ÜST-in 1952-ci il tarixli sosial psixiatriya tərifi kimi köhnəlib. Bu, elmi tərif deyil, əksinə, məhz bu beynəlxalq təşkilatın nizamnaməsi üçün təntənəli üslubda siyasi bəyanatdır. ÜST tərifinin Konvensiya xarakterini pozmayaraq, qeyd etmək lazımdır ki, sağlamlığın bu tərifi psixi sağlamlığı da ehtiva edir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Lakin psixi sağlamlığın sərhədləri, tibbi mənada, sağlamlıqdan daha problemli, dinamik və genişdir. Əgər biz iki cüt anlayışı: "xəstəlik və psixi xəstəlik" və "sağlamlıq və psixi sağlamlıq" anlayışlarını müqayisə etsək, adi paralellik, proporsionallıq, analogiya əvəzinə, topoloji inversiya görərik: psixi xəstəlik - xəstəliklərin çoxsaylı növlərindən biridir, lakin psixi sağlamlıq isə, "sağlamlıq" sözünün ümumişlək tibbi mənasından daha genişdir. Başqa sözlə, psixi sağlamlıq, heç də təkcə tibbi problem deyildir. Psixi sağlamlıq cəmiyyətin bütün quruluşu ilə, onun ideologiyası, ab-havası, sosial siyasəti, onun təbiətlə və beynəlxalq birliklə olan münasibətləri ilə təmin edilir.

Qeyd etmək lazımdır ki, psixi sağlamlıq siyasəti koordinasiya edilmiş geniş hüquqi və inzibati tədbirlər vasitəsilə həyata keçirilir: təşkilati, məxsusi tibbi və destiqmatizasiya proqramından başlayaraq, geniş anlaşılan profilaktik tədbirlər. Bu səylər aşağılardan - pasiyentlərdən, onların qohumlarından və müxtəlif ictimai təşkilatlardan gələn çoxsaylı təşəbbüsləri sürətləndirir və onlarla birləşir. Bu proseslərin bütün konkretliyi ilə aydınlaşdırılması və başa düşülməsi onların təbii inkişafına kömək edən düşünülmüş konsepsiya formalaşdırmağa imkan verir. Sərt əhkam xarakterli fəaliyyət planının zorla qəbul edilməsi, requlyasiya əvəzinə, idarəetmə cəhdləri çox destruktivdir. Requlyasiyanın vəzifəsi proseslərin ümumi əlverişli istiqamətini saxlamaq və bu zaman yaranan dayanmaların aradan qaldırılmasından ibarətdir. Artıq riyazi modellər səviyyəsində idarəetmə nəzəriyyəsi mərkəzsizləşdirmənin şəksiz üstünlüyünü, ümumi məqsədə nail olmaq yollarının axtarışında sərbəstliyi, idarəetmə əvəzinə, çevik requlyasiyanı, yaranmış vəziyyətdən asılı olaraq, planların korreksiyasını göstərir.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 4 iyun

## YAP Şabran rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib



Dünən YAP Şabran rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib. Konfransı YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov açaraq, qarşıya qoyulan məqsədlər, eləcə də,



gənclərin partiyadakı rolu, ölkə rəhbərliyinin Azərbaycan gəncliyinə göstərdiyi davamlı diqqət və qayğısı barədə danışıb. Qeyd edib ki, YAP Şabran rayon təşkilatının 5390 nəfər üzvü var, onlardan 2408 nəfərini gənclər, 1294 nəfərini isə gənc qadınlar təşkil edir, rayon təşkilatının 75 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir: "Gənc üzvlərimizin 908 nəfəri ali, 513 nəfəri orta ixtisas, 986 nəfəri orta təhsillidir, 1 nəfəri isə elmlər namizədidir. Gənclərin 582 nəfəri təhsil, 167 nəfəri səhiyyə, 211 nəfəri elm, mədəniyyət, 72 nəfəri idarəetmə sahəsində, 848 nəfər üzvlər isə digər idarə və müəssisələrdə çalışır, onların 129 nəfəri isə tələbədir. Gənclərin sıralarında olan gənclərin 1 nəfəri Dünya Çempionu, 2 nəfəri Respublika Çempionu, 6 nəfəri İdman Ustası, 4 nəfəri isə Ustalığa namizəddir. 2019-cu ilin 5 ayı ərzində, YAP Şabran rayon gənclər birliyinin sıralarına 47 nəfər üzv qəbul olunmaq üçün ərizə verib. Konfransda YAP Şabran rayon təşkilatı gənclər birliyinin sədri Fərid Bağızadə çıxış edərək, GB-nin gördüyü işlər barədə məlumat verib. YAP Şabran rayon təşkilatı idarə heyətinin üzvü, Milli Məclisin deputatı Tahir Süleymanov, rayon icra hakimiyyətinin başçısı Asif Hüseynov çıxış edib, ölkəmizdə yürüdülən uğurlu gənclər siyasətindən danışaraq, əldə edilən nailiyyətlərin hər birinin Azərbaycanın daha uğurlu gələcəyinə stimul verdiyini qeyd edib, ölkə gəncliyinin YAP-ın Sədri, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşdiyini bildiriblər.

Sonra YAP Şabran rayon təşkilatı gənclər birliyinin 15 nəfər şura üzvlüyünə, 9 nəfər idarə heyətinə seçilib, Fərid Bağırzadə rayon təşkilatı gənclər birliyinin sədri, Turan İsgəndərli və Gülər Kərimova sədr müavinləri, həmçinin, YAP Gənclər Birliyinin ümumrespublika konfransına nümayəndələr seçilib. Sonda yeni qəbul olunmuş üzvlərə üzvlük vəsiqələri təqdim olunub.

***RƏFİQƏ HÜSEYNOVA***

## ELAN

ADPU-nun Kimya-biologiya müəllimliyi ixtisası üzrə V kurs üzrə tələbəsi İsmayılova Kəmalə Mehman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun "Sabah qrupları" ibtidai təhsil ixtisası III kurs tələbəsi Xıdırova Əminə Vasif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız ayılır.

## BAŞSAĞLIĞI

YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

***

YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

***

YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov və aparat əməkdaşları YAP İcra Katibliyinin Sənədlərlə iş və statistika bölməsinin müdiri

**Afət xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

# Çilov adası sakinlərinə ödənişsiz hüquqi yardım göstərilib

Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı ilə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına hüquqi məsləhətə ehtiyacı olan aztəminatlı şəxslər üçün pulsuz hüquqi xidmətlər göstərilməsinin təşkil edilməsi tövsiyə olunmuşdur. Göstərilən tövsiyənin icrası ilə bağlı həyata keçirilən tədbirlərin davamı olaraq, iyunun 3-də Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təşəbbüsü, həmçinin, Pirallahı rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Pi-






rallahı rayon təşkilatının birgə təşkilatçılığı ilə, "Kəngərli və Partnyorları" Vəkil Bürosu tərəfindən vəkillik tarixində, ilk dəfə olaraq, helikopter vasitəsi ilə Pirallahı rayonu Çilov adasına gedərək, orada yaşayan aztəminatlı əhaliyə ödənişsiz hüquqi yardım göstərilib.

Görüşü giriş nitqi ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qonaqları və Çilov adası sakinlərini salamlayaraq qeyd edib ki, artıq 16 ildən çoxdur ki, ölkəmizdə hüquqi-demokratik dövlət quruculuğu prosesi gedir. "Azərbaycan Respublikası müstəqilliyə qovuşduqdan sonra demokratik- hüquqi dövlət quruculuğunu özünün inkişaf yolu seçib" deyə qeyd edən Hikmət Şikarov bildirib ki, müstəqilliyinin ilk illərində Azərbaycan öz tarixinin ən mürəkkəb dövrlərindən birini yaşamışdır. 1991-1993-cü illərdə Azərbaycanda hökm sürən xaos, özbaşınalıq, siyasi səbatsızlıq və naşı idarəçilik, vətəndaş müharibəsi təhlükəsi, mövcud vəziyyəti daha da ağırlaşdıran aqressiv separatizm və ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğal olunması qarşıda duran həyati əhəmiyyətli vəzifələrin yerinə yetirilməsinə imkan vermirdi: "Müstəqilliyinin ilk kövrək addımlarını atan Azərbaycanda dövlət quruculuğu prosesinə başlanması ölkədə, ilk növbədə, sabitliyin bərqərar olmasını zəruri edirdi. Məhz belə ağır şəraitdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev qısa müddət ərzində, Azərbaycanda sabitliyi təmin etməyə nail olur və ölkəmiz, qarşısında duran taleyüklü dövlət quruculuğu məsələlərini həyata keçirməyə başlayır".

Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədr müavini Pərviz Ələkbərov çıxışında Ümummilli Lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesinin, məhz demokratik- hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəldiyini, hazırda isə, həmin prosesin Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirildiyini bildirib. Daha sonra görüşdə iştirak edən vəkillər 28 May NQÇİ-nin akt zalında 60-dək vətəndaşa müxtəlif hüquqi yardım göstərmiş, onların problemləri ilə tanış olmuş, müvafiq məsləhətlər vermiş, həmin məsələlərlə bağlı müxtəlif dövlət, eləcə də, qeyri-dövlət qurumlarına ərizə və şikayətlər yazmışlar. Çilov adasına gediş-gəlişin çətin olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və Pirallahı RİH tərəfindən gələcəkdə bu cür tədbirlərin, mütəmadi olaraq, keçirilməsi nəzərdə tutulmuşdur.

***Rövşən RƏSULOV***

# İstanbulda Türkiyədə hazırlanmış ən böyük "Qurani Kərim" təqdim olunub



İstanbulun Camlıca Məscidində Ramazan ayı münasibətilə 70 kiloqram ağırlığında, 71/90 santimetr böyüklüyündə, 9 santimetr qalınlığında olan "Qurani Kərim" nümayiş olunur. AZƏRTAC xəbər verir ki, müqəddəs kitab Türkiyə Dəyanət Vəqfi tərəfindən Ramazan ayı münasibətilə keçirilən 38-ci Türkiyə Kitab və Mədəniyyət Sərgisində ziyarətçilərə təqdim olunub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**